**Hacı Mehman Fərzullayev**

# Şərəfli ömür yolu

**«Vətən» nəşriyyatı**
**Bakı- 2011**

**Redaktor   Hacı Qüdrət Piriyev**

**Fərzullayev M.**

**Şərəfli ömür yolu**

**Bakı, «Vətən» nəşriyyatı 2011, 80 s.**

***Kitab ömrünün 60 ilindən çoxunu müqəddəs «Söz»ün keşiyində qələmi ilə şərəflə dayanmış, uzun illər boyu Azərbaycan Dövlət İnformasiya Agentliyində, «Bakı-Baku» axşam qəzetində, milli mətbuatımızın şəriksiz lideri, bu gün, «Xalq qəzeti» adlanan «Kommunist»də, Bakı Şəhər İcra Hakimiyyətində işləmiş, şəxsiyyəti, əqidəsinin düzlüyü, halallığı, prinsipallığı ilə həmişə nümunə olmuş, 1941-1945-ci illər Böyük Vətən müharibəsinin odu-alovundan keçmiş, ön və arxa cəbhədə göstərdiyi danılmaz xidmətləri, çoxsaylı orden, medal, əməkdar jurnalist, «Qızıl qələm» ali jurnalist mükafatlarına və digər təltiflərə layiq görülmüş, müdrik insan, dəyərli el ağsaqqalı Kazım Hacı oğlu Ələkbərovun dolğun və mənalı ömür yoluna işıq salır.***

**F $\frac{470\ 204\ 000}{030}$ 11**

**© Vətən 2011**

**And olsun Qələmə! Və onunla yazılanlara!**

***Bismillahir-rəhmanir-rəhim!***

Ömrünün 60 ilindən artıq bir dövrünü jurnalistikamıza həsr etmiş və qələmi hər şeydən üstün tutaraq, onunla yaxşı işlər görən, insanlar haqqında yazmağı və yaşadığı cəmiyyətdə olan naqisliklərin bəzilərini üzə çıxararaq, bu işdə günahkar olanları islah etməyə sərf etmiş, «iki cəbhənin qəhrəmanı» «iki əsrin jurnalisti» kimi tanınan xeyirxah insan, ailənin dayağı, yaxşı oğul, sevilən və sədaqətli həyat yoldaşı-ər, sevimli baba, Vətənini və xalqını canından əziz bilən və bu yolda qanından keçməyə hazır olan əsil vətəndaş, ömrünün 86 yaşında, gözlərinin nurunu itirdiyi vəziyyətdə belə başqalarını düşünməyə qadir şəxsiyyət, Kazım Hacı oğlu Ələkbərovla tanışlığım Rəşid müəllim vasitəsilə olmuşdu.

Kazım müəllim üçün həyatda daha yaxşı vəzifələrdə işləmək imkanı yaransa da, O, öz ömrünü qələmə – jurnalistikaya bu ilahi sənətə bağlamışdır.

Ona görə ilahi sənət adlandırdım ki, bu sənətdə çalışanların çörəyi uca Allahın yaratdığı müqəddəs **«Qələm»**dən çıxır. Xaliq tərəfindən **«Ümmül-kitab»** adlandırılmış müqəddəs **«Quran»** və **«Lövhiməfhuz»**dakı elm, olay və olacaqlar digər müqəddəs kitab və sühuflar, məhz qələmlə yazılmışdır.

Rəbbimiz müqəddəs Peyğəmbərimiz s.ə. və səlləmə Cəbrail vasitəsilə 19 sözdən ibarət olan **«Ələq»** surəsinin ilk beş ayəsində insanı yaratdıqdan sonra qələmi yaratdığını və bilmədiklərini insana onunla yazmağı öyrətdiyindən bəhs edir. Burada 15-ci söz **«Qələm»**dir. Allah **«Quran»**dakı **«Nun vəl Qələm»** surəsində: – «***And olsun Qələmə! Və onunla yazılanlara!***» deyərək ona and içir. İnsanın etdiyi bütün əməllər taleyi **«Qələm»**lə yazılmaqla bilmədiklərini – yer təkini, dənizləri və göyləri məhz bu yolla öyrənərək yazıb özündən sonrakılara da ötürdüyündən, Lövhi-Məhfuzdakı yazılar, Ummul-Kitab, Allahın göndərdiyi digər kitab və suhuflar onunla yazıldığından qələm müqəddəsdir.

Kazım müəllimin «Mən necə jurnalist oldum» adlı birinci kitabına ön söz kimi Rəşid Mahmudovun «İki cəbhənin qəhrəmanı» adlı yazısının əvvəlində belə bir cümlə var: *«Mübaliğəsiz və cəsarətlə deyirəm: əgər şairlər, yazıçılar Kazım Ələkbərovun həyat yolunu diqqətlə öyrənib təsvir etsəydilər, neçə-neçə poema, roman yazardılar...»* Digər bir yerdə onu jurnalistikada *şəxsiyyət»* adlandırmışdır. Kitab nəşr olunanda mən bunu oxumuşdum. Rəşid müəllim özü də ayrı-ayrı vaxtlarda Kazım müəllimdən bəzi xatirələri danışdıqda qayğılansam da, iş yerimdə olan problemlər və digər səbəblərdən bunların çoxu yadımda qalmazdı.

Akademik Bəkir Nəbiyev onun haqqında yazdığı məqaləsində qeyd edir ki, *«biz cavan jurnalistlər Kazım Ələkbərova həsəd aparır, yeni çıxışlarını*

*səbirsizliklə gözləyir, onun yazı tərzindən, fakt və hadisələrə münasibətindən öyrənərdik.»*

Tanınmış jurnalist, professor Aqşin Babayev və İsaq Əmənullayev onu *mətbuatımızın fədaisi,* Hacı Qüdrət Piriyev *jurnalistikamızın sonuncu mogikanlarından biri,* Əlipənah Bayramov yaradıcılıq *müəllimlərindən,* Telman Əliyev *iki cəbhənin əsgəri*, Zərxanım Əhmədli isə *bir ömürdə yüz ömür yaşadan* adlandırmışdır.

Bu yazını qələmə almazdan əvvəl Kazım müəllimin xatirələrini bütövlükdə oxuduqdan və ayrı-ayrı adamlarla onun haqqında söhbət etdikdən sonra bir daha belə qənaətə gəldim ki, Kazım müəllim heç də adi adamlardan deyil, sadəcə görünüşü bizə adidir. İlk baxışdan konkret şəxs haqqında yaranmış təsəvvür heç də həqiqəti əks etdirmir, bəzən də əksinə, – bir çox hallarda insanı tanıdan əməlləri və ya danışan dili olur.

Böyük Şeyx Nizami demişkən: – «*Ey insan sənin gözlərinin görmə həddi məhduddur*». Bu bir həqiqətdir. Hər kəs idrakı miqyasında görmək və dərk etmək iqtidarındadır. Mən də ondan artığını görə və dərk edə bilmərəm.

Uzun illər Kazım müəllimlə bir yerdə işləmiş və dostluq münasibətində olmuş, Rəşid müəllimlə görüşdüyümüz vaxtlarda o, filarmoniya bağında yerləşən Vahid Poeziya evinin qarşısındakı fontanın yanında əyləşib çay içə-içə olmuşlardan söhbət edər, jurnalistikadan danışanda, Rza Quliyev, Əli Vəliyev, İsrafil Nəzərov, Nəsir İmanquliyev, Ağababa Rzayev, Əvəz

Sadıq – *və digərlərinə rəhmət diləyib*, Kazım Ələkbərovun adını hörmətlə çəkər: – *qələminə sadiq yaxşı insandır* – deyərdi – Kazım müəllimlə də yaxın tanışlığımız elə burada yaranmışdı. O vaxt Kazım müəllim Bakı Şəhər İcra hakimiyyətində işləyirdi.

Növbəti görüşlərimizin birində Rəşid müəllim özüylə götürdüyü qovluqdan səliqə ilə yazılmış iki səhifəni mənə verib oxu! – dedi. Kazım müəllimə ünvanlanmış təbrik məktubu idi. Məktubu özü yazsa da özündən başqa mən də daxil olmaqla daha yeddi qələm əhlinin də adlarını imza yerində qeyd etmişdi. Məktubu mənə iki dəfə oxutdurdu. Nə əlavə etmək istəyirsən  deyə soruşdu? Hacı olmağımı nəzərə alıb nəsə əlavə etməyimi təkid edirdi. Rəşid müəllimin yüz ölçüb bir biçib yazdığına mən nə əlavə edə bilərdim, ona görə də hər şey əladır, nə desəm yamaq olar. Ancaq ürəyimdən bir dua keçirdi – «Allah sizə yar olsun!» və bu ifadəni səhəri mətn yığılanda əlavə etdim. Bu Rəşid müəllimin çox xoşuna gəlmişdi.



***Kazım müəllimin 75 illik yubiley gecəsində***

Kazım müəllimin 75 illik yubiley gecəsi çox gözəl keçdi. Bu ziyafətə tanınmış ziyalılar, maraqlı şəxslər toplaşmışdı. Hər şey çox sadə və gözəl olmaqla, qonaqların yüksək ranqlarına baxmayaraq özlərini səmimi aparmalarından mənə elə gəldi ki, bu insanları lap çoxdan tanıyıram. Bütün bunlar Kazım müəllimin daxili aləminin saflığı, təmizliyi, uzun illər bu insanlarla olan təmənnasız dostluğundan xəbər verirdi.

Dost sözü çoxmənalı olmaqla insanın bir çox müsbət xasiyyət çalarlarını özündə ehtiva edir. Bütün yaxşı sözləri insanlara ülfət üçün bəxş edən Xaliq, bu gün dünyəvi dinlər kimi qəbul edilmiş üç təkallahlı

dinin Ulul-əzəm peyğəmbər qəbul etdiyi, Nuhdan sonra Allahın təkliyinə və göndərdiklərinə varlığı ilə inanmış və bütün sınaqlardan keçmiş, **Peyğəmbərlər atası** adlandırılan İbrahimi **«Xəlilullah»** yəni Allahın dostu kimi şərəfləndirdiyindən bu adın silqəti, ağırlığı, məsuliyyəti çox böyükdür. Çox ehtimal ki, ilk dost sözü də yer üzünə o vaxt nazil olmuşdur.

Müqəddəs Peyğəmbərimiz Muhəmməd Rəsulullah dostluğu çox yüksək qiymətləndirərək dostluqda sədaqətli olmaqla onun bütün çətinliklərinə dözmüş dostlarını heç vaxt çətində, darda qoymamışdır.

Bir gün islamın təbliği ilə əlaqədar özünün yetirməsi və əmisi oğlu Əli ilə qonşu şəhərə gedərkən Mədinə yolunda əldən düşmüş qoca bir kişinin cırcındır içində yolun kənarında torpağın üstündə oturduğunu görüb ona yaxınlaşıb insan məskənindən uzaq olan bu yerdə nə üçün təkbaşına əyləşdiyini soruşur. Qoca: – *«qırx il bundan əvvəl dostumla ticarətdən qayıdanda, o bu yerdə xəstələnib vəfat etdi. Mən onu burada basdırdırdan sonra tək qoyub gedə bilmədim. Və o vaxtdan hər gün onun ruhuna dualar oxuyub qəbrini qoruyuram»* deyir. Rəsulullah bu dostluğa bu sədaqətə heyrət etməklə, kişidən burada basdırılan dostunun kim olduğunu soruşur: – qoca – «*Məkkənin Qüreyş qəbiləsindən bəni Haşim nəslindən olan Əbdül Müttəlibin oğlu Abdullah*» – cavabını verdikdə, Rəsuli-Əkrəm burada yatan adamın atası Abdullah olduğunu bilir, atasına Uca Allahdan rəhmət dilədikdən sonra öz paltarını soyunub qocaya verib özü onun süzülmüş paltarını

geyinir. Ərzaq və su ehtiyatlarını da ona verərək Məkkəyə getməsini tövsiyə edir. Həzrət Əli ə.s. Rəsuli-Xudadan islamın təbliği üçün yollandıqları şəhərə bu vəziyyətdə necə gedəcəklərini soruşduqda-Həzrət buyurur ki, dost yolunda göstərilən belə sədaqətin qarşısında etdiklərimin bir dəyəri yoxdur, həm də gördüyün kimi bu qoca kişi mənim atamın dostu olmuş və onun ruhuna uzun illər yüksək hörmət və məhəbbət bəsləmişdir. Bizə isə Allah kömək olar inşaallah!

Dost yolunda bir çox hallarda çətinliklərə də dözmək lazım gəlir. Təhsil almaq üçün uzun illər doğma yurdundan ayrılmış çox böyük bir alim və övliya bir gün öz Vətəninə qayıdır. Növbəti gün qapıda böyük səs-küy eşidib doğmalarından soruşur ki, bu nə məsələdir. Doğmaları deyir ki, gələnlər sənin dostların olduqlarını iddia edirlər. Böyük alim qapını açıb yerdəki daşları gələnlərə tərəf atmağa başlayır. Bir çoxunun başı yarılmaqla hamısı qaçıb gedir. Ən çox zərbə yemiş, başı yarıqlı birisi isə axıra qədər qalır. Alim ondan sən kimsən soruşanda: – kişi, – mən sənin dostunam və bu yolda hər cür məşəqqətə dözməyə hazıram deyir. Alim onu evinə buraxır.

*Dost yolunda boran olar, qar olar deyiblər.* Gərək buna dözəsən.

*Deyirlər dostunu göstər, kim olduğunu deyim.*

Kazım müəllim təkcə dostluqda deyil yoldaşlıqda da sədaqətli olub, bir dəfə çörək kəsdiyi adama həyatı boyu sədaqət göstərərək müqabilində heç vaxt əvəz gözləməyib. Bunları mənə özü danışmayıb. Özünün ayrı-ayrı vaxtlarda qələmə alıb müxtəlif qəzet

və jurnal səhifələrində dərc etdirdiyi xatirə, məqalə, yol qeydlərindən və yaxşı tanıdığım digər qələm sahiblərinin onun haqqında danışdıqları və qələmə alınmış ümumilikdə beş kitabda və 900-ə yaxın səhifədə cəmlənmiş yazıları oxuduqdan sonra belə qənaətə gəlmişəm.

Kazım müəllimin cəbhə xatirələrində Gerasimov familiyalı özündənmüştəbeh, vulqar danışıqlarıyla başqalarını təngə gətirən və moskvalı olması ilə qürrələnən yekəpər bir zabitdən mənfi tip kimi söhbət açılır. Sadəcə cəbhə yoldaşı olduğundan və bir dəfə çörək kəsdiyindən, ondan xoşu gəlməsə belə, dəfələrlə onu çətin vəziyyətdən xilas edir. Sovet qoşunları Varşavaya girərkən, qatarda təbiətcə əyyaş olan Gerasimov adi kağız parçasına «raspiska» sözü yazaraq yerli dükan və yeməkxana sahiblərinə verib, bu «raspiska» ilə bizə verdiyiniz ərzaq məhsulları və spirtli içkilərin əvəzi sizə ikiqat ödəniləcəkdir deyərək onlardan müxtəlif ərzaq məmulatları alır və özükimilərlə birgə qonaqlıq təşkil edir.

Gənc zabit olan Ələkbərovu da belə qonaqlığa dəvət etdikdə: – Kazım Ələkbərov – mən adamları aldadıb onlardan havayı alınmış belə qonaqlıqda iştrak edə bilməz, belə çörəyi yeyə bilmərəm. Bir də ki, siz nə üçün, şərəfli zabit adını ləkələyərək bu yazıqları aldadır və gələcəkdə bizim haqqımızda pis təsəvvür yaranmasına səbəb olursunuz dedikdə: – Gerasimov – «ey yoldaşı» gözlərini çıxararam deyərək, Kazım müəllimə tərəf yeriyir. Gənc zabit Ələkbərov tapancasını çıxararaq Gerasimova tərəf atəş açır. Bu anda yanında olan zabit yoldaşının

əlindən vurması ilə güllə Gerasimovdan yan keçir. Kazım Ələkbərov tapancasını təkrarən bu «veliko-rus» şovinist əyyaşa tuşlayaraq onu hamının yanında diz çökərək üzr istəməsini tələb etdikdə və əks halda onu güllələyəcəyini dedikdə – özündənmüştəbeh Gerasimov muma dönərək diz çöküb Kazım Ələkbərovdan üzr istəməli olur.

Böyük Vətən müharibəsi illərində azərbaycanlara və ümumən müsəlman türk xalqlarına bu cür münasibət orduda adi hal idi. Hamısına «yoldaşı» «vaşu mat» deyərək təhqir edirdilər. Özlərini müdafiə edə bilənlər təbii ki, az olmaqla həm də buna görə cəzalandırılırdılar.

Belə bir hadisə yaxşı tanıdığım, son vaxtlar Respublika Veteranlar Şurasının sədr müavini və sədri vəzifəsində çalışmış Baloğlan Rüstəmovun başına gəlmişdi. 1943-cü ilin qışında Sovet qoşunları Belorusiya cəbhəsində ciddi əməliyyata hazırlıq görürmüş. Düşmənin mövqelərini öyrənmək üçün kəşfiyyat rotasının komandiri kapitan Rüstəmova tapşırıq verilir. Kapitan Rüstəmov kiçik kəşfiyyat dəstəsilə düşmən arxasına keçərək ordu qərargahının yaxınlığındakı meşədə «ağıllı dil» gətirmək üçün üç gün 30 dərəcə şaxtada fürsət gözləyir və nəticədə yüksək rütbəli bir alman zabitini məxfi sənədlərlə birgə ələ keçirib qərargaha gətirir. Bundan əvvəlki bir neçə uğurlu əməliyyata görə kapitan Rüstəmovun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi üçün komandanlıq Moskvaya təqdimat göndəribmiş. Təqdimat bütün mərhələlərdən keçib Ali baş Komandanın imzalanmasına göndərildiyindən dostları onun

şərəfinə qonaqlıq təşkil edirlər. Ancaq Rüstəmov növbəti uğuru ilə bağlı komandanın yanında olduğundan məclisə gecikir. Gerasimov tipli bir rus kapitanı qonaqlıq təşkil olunmuş yeraltı qazmada o baş bu başa gedərək tez-tez kimi gözləyirik, gəlin içək deyə təkid edir. Yoldaşları isə səbəbkarın gəlməsini gözləməyi məsləhət bilirlər. Bu anda komandanlıqdan növbəti təşəkkür almış kapitan Rüstəmov içəri girir. Yoldaşları ura deyib onu təbrik etdikdə, tərbiyəsiz, şovinist zabit: «-biz bayaqdan bu cornıy... gözləyirdik» dedikdə: Rüstəmovun gözlərində sanki şimşək çaxır. Bir anın içində tapançasını çıxararaq onu təhqir etmiş kapitanı güllələyir və əməliyyat hissəsinə gedib hadisəni danışaraq silahını təhvil verir.

Bir anda hamının sevinci kədərə dönür. Sovet İttifaqı Qəhrəmanı adına təqdim olunmuş kapitan Rüstəmov «Qızıl ulduz» əvəzinə cərimə batalyonuna göndərilir.

Məhz belə hadisələrin və münasibətlərin səbəbindən təqiblərə məruz qalmış Böyük Vətən müharibəsində ermənilərdən və gürcülərdən sayca az qala yarım dəfə çoxluq təşkil edən, döyüşən və daha böyük şücaət-qəhrəmanlıqlar göstərmiş azərbaycan oğulları arasında Sovet İttifaqı Qəhrəmanları erməni və gürcülərə nisbətən sayca daha az olmasının bir səbəbi də müsəlman-türk və ümumiyyətlə bütün müsəlman xalqlarına qarşı bütövlüklə mərkəzin və ordunun ayrı-ayrı komandirlərinin apardığı ədalətsiz siyasətin nəticəsi idi.

SSRİ yarandıqdan sonra illərboyu Azərbaycan ziyalıları təqiblərə məruz qalmış, güllələnmiş, sürgünə göndərilmiş, yaxşı hesab etdiklərini isə imperiyanın müxtəlif yerlərində guya vəzifəyə göndərərək rusdilli əhali arasında əritməyə çalışmaqla xalqımıza qarşı haqsızlıqlar edilmişdi. Təbii ki, göndərilənlərin çoxu subay olduğundan orada rus və ya digər millətlərdən olan qadınlarla evləndiklərindən milliyyətini itirirdi. Ailəli olanların da övladları orada «beynəlmiləl» tərbiyə aldıqlarından və başqası olmadığından Xristian dinindən olanlarla evlənməklə dinini, dilini və milliyyətini itirirdilər. Çox nadir hallarda tək-tük iradəsi, mili qeyrəti yüksək olanlar dil və milli mənsubiyyətlərini qoruya bilirdilər.

Yeri gəlmişkən bu yerdə qeyd etmək istəyirəm ki, Kazım müəllimin evlənməklə bağlı xüsusi fikri olmuşdur. Gənclik yaşlarında, müharibə dövründə keçdiyi şəhərlərdə və ordudan qayıdıb «AzTAq»da işlədiyi ilk illərdə ailə qurmaq üçün çox ağıllı, savadlı və yaxşı ailələrdən olan neçə-neçə gözəl qızla bir yerdə işləməklə dostluq münasibətində olsa da onların heç birinə evlənmək fikri olmadığı üçün arada sərhəd saxladığından kollektivin yüksək hörmət və məhəbbətini qazana bilmişdi. Geniş imkanları olmadığı və anasının xəstə olması ilə əlaqədar o özünə elə bir ömür-gün yoldaşı axtarırdı ki, onların ailəsinə bab və yaxınlardan olsun ki, anasının, qohumlarının qulluğunda durmaqla bərabər onun hər əzabına çətinliyinə dözə bilən və övladlarına qayğıkeş bir ana, özünə sədaqətli ömür-gün yoldaşı olsun. Və bir gün bu incə qayğıkeş

üzündə həmişə təbəssüm olan, özü kimi gözəl qəlbə malik xanım – ana tərəfdən qohumu Asya bir ürkək baxışla onun qəlbini ovladı, Allahın istəyiylə olan bu iş həm də anasının ürəyincə idi. Və beləliklə xudmani bir məclis quraraq Kazım müəllimi Asya xanımla evləndirirlər. Bu izdivacdan iki gözəl, ağıllı övlad – Sevinc və Azər dünyaya gəlib, valideynlərinin gözlərinin nuru olurlar. Bu gün Kazım müəllimlə Asya xanım 60 ildir ki, bir yerdə yaşamaqla evliliklərinin ilk illərindəki məhəbbətlə bir-birini sevə-sevə, əzizləyə-əzizləyə ömür sürürlər. Allah axırlarını və axirətlərini gözəl qərar versin! Amin!

Böyük Vətən müharibəsi illərində xalqımızın qəhrəman oğullarına qarşı ədalətsizlik o dərəcəyə çatmışdı ki, o vaxtkı respublika rəhbəri məsələyə münasibət bildirməklə Ali Baş Komandanın razılığı ilə Azərbaycanlılardan ibarət 416-cı Taqanaroq diviziyasını yaratmış və bu diviziya döyüşə-döyüşə Berlin divarlarına qədər gedib çıxmışdı. Bir qədər sonra daha bir neçə Azərbaycan diviziyası yaradılmış və onlar cəbhələrdə böyük sücayətlər göstərmişdilər.

Yuxarıda xalqımıza qarşı aparılmış ədalətsiz siyasət yüzillər boyu Rus imperiyasında formalaşmış və bu gün də davam etməkdədir. 20 yanvar və Qarabağ faciəmiz də məhz bu siyasətin nəticəsidir. Torpaqlarımızın 20 faizi Rusiyanın köməyilə ermənilər tərəfindən qəsb olunduğuna baxmayaraq bu anneksiyanı nə Rusiya, nə də bir sıra xristian dövlətləri etiraf etmək istəmirlər və məhz bu tipli dövlətlərin təzyiqindən hətta türkdilli-qardaş respublikaların bəziləri də bu anneksiyanı

təsdiqləməkdən qorxurlar. Bəzən buna inanmağım gəlmir. Türk mənşəli olub, bizi qardaş adlandıran və — Türkmən-Qırğız, Özbək, Qazax bir soydanıq dediyi və bu xalqların rəhbərlərinin hər biri gəlib burada — yerində torpaqlarımızın zəbt olunduğunu gördükləri halda Orta Asiya respublikalarının başçıları bu həqiqəti təsdiqləməkdən yayınmışlar. Yazıqlar olsun! — deyirəm bizlərə və qardaş adlandırdığımız belələrinə. Ümid edirik ki, nə vaxtsa haqq yerini tapacaq və ədalət bərpa olacaqdır.

Söhbəti Gerasimovdan və Kazım müəllimin yoldaşlıq münasibətindən başlamışdım. Müharibənin sonunda qoşunlarımız Vətənə qayıdarkən Kazım Ələkbərov Gerasimovu möhkəm döyülmüş, ağzı-burnu dağılmış, sənədləri və əşyaları oğurlanmış, üst başı qan içində, paltarlarını cırılmış vəziyyətdə görür. Kazım Ələkbərov cəbhə yoldaşı olduğu üçün onu yenə də çətin vəziyyətdən xilas edərək, yaxşılığından qalmır. Özü qatara gecikə biləcəyi halda sadəcə bir yerdə döyüşdüklərinə cəbhə yoldaşı olduğuna görə onu sürüyə-sürüyə komendaturaya aparır, sənədlərini qaydaya saldırıb əşyalarını saxlama kamerasından tapdırır və özünün yazdığına görə sadəcə insanlıq borcunu yerinə yetirmiş olur.

Bir gün Həzrət Peyğəmbərimizin səhabələrindən olan Ömər ondan soruşur ki, ya Rəsulullah nədən sən Əlini bizim hamımızdan əziz tutursan? Təbii ki, sual yersiz idi. Çünki Əli peyğəmbərə bütün parametrlərinə görə ən yaxın idi. Belə ki, Əli doğulduqdan sonra ilk dəfə peyğəmbər Rəsulallahın qucağında gözlərini açmış, və birinci onu görmüşdü.

Onun evində böyüyüb tərbiyə almış, Həzrət Muhəmmədə Peyğəmbərlik verildikdən sonra dünyaya gəlmiş **Nisailaləmin** ləqəbilə şərəfləndirilmiş və nəslini dünyaya gətirmiş Fatimeyi Zəhranın əri, İslamı peyğəmbərdən sonra qəbul edən ilk kişi olmaqla, Xəndək döyüşündə Əmr ibn Əbddəvi qətlə yetirməklə döyüşün müqəddəratını həll etmiş, Xeybərin qapısını bir əli ilə yerindən qoparan, **İslamın xilaskarı**, — **Əsədullah**, **Seyfullah, Heydəri-Kərrar**, **Əbu-Turab, Murtəza** və digər adlarla uca tutularaq şərəfləndirilmiş, ənsarlarla qardaşlıq əhdi bağlananda Peyğəmbər ona sənin mənimlə qardaşlığın Musanın Harunla qardaşlığı kimidir deyərək onu özünə qardaş götürmüşdür. İslam aləmində və ümumiyyətlə dünya qəhrəmanlıq tarixində heç kəs Əli qədər şöhrətli adlarla çağırılmamışdır. Hər ikisinin ata nənəsi eyni olmaqla Əbdül Müttəlib nəvələri idilər. Bütün bunlara görə, vərəsəlikdə və xidmətlərinə görə Əli qədər heç bir insan oğlu Muhəmməd Rəsulullaha yaxın olmamışdır. Bununla belə peyğəmbər Rəsulullah Ömərdən soruşur ki, ya Ömər, biri sənə pislik etmiş olsa sən nə edərsən. Ömər cavab verib deyir ki, — «*mən də ona pislik edərəm*». Əlbəttə Ömərin cavabı İslamda və digər ilahi-dünyəvi dinlərdə caiz sayılır. Biri sənə pislik edərsə, həddini aşmamaq şərtilə sən də onun həddində cavabını verə bilərsən. Ancaq **«Qurani-Kərim»**də bağışlamağa daha çox üstünlük verilir.

Bu anda Həzrət Əli ə.s. salam verib məclisə daxil olur. Rəsulullah ondan soruşur ki, – ya Əli biri sənə

pislik etsə sən nə edərsən? Əli cavab verib deyir ki, — «*mən ona bacardığım qədər yaxşılıq edərəm.*» Peyğəmbər sualını üç dəfə təkrar edir və hər dəfə Əlidən eyni cavabı alır. Sonda Əli deyir ki, — «*ya Rəsulullah özünü yorma o adam, mənə nə qədər pislik etsə mən ona yaxşılıq edərəm. Əgər o, özünün pis əməlindən qalmırsa mən nə üçün öz yaxşı əməlimdən qalmalıyam.*» Əlinin əxlaqı belə idi. O, bu əxlaqı Peyğəmbər-Xudadan əxz etmişdi.

Peyğəmbərimiz (s.ə.və s.) bütün ömrü boyu ona pisliklər etmiş adamlara yaxşılıq etmiş, qan düşmənlərini bağışlamış, ümmətinin islahı üçün yorulmadan uca Allaha dualar etmişdi. Əlinin bu sözündən sonra Peyğəmbər Ömərə və digər səhabələrə üzünü tutub mən Əlini məhz bu xüsusiyyətinə görə daha çox qiymətləndirirəm! Baxmayaraq ki, yuxarıda Əli ilə bağlı qeyd etdiyim çox önəmli məsələlər var idi. Peyğəmbər üçün hər kəsin xeyirxah əməli və mərhəmətli olmağı bütün digər xüsusiyyətlərini üstələyirdi.

Mən bu məsələni burada təsadüfən çəkmədim. Kazım müəllimlə bağlı oxuduğum çoxsaylı məqalələrdə və özünün yazdıqlarında onun xeyirxah əməllərindən bəhs edən yetərincə gözəl misallar var, ancaq bütün bunları bir məqaləyə, ya da kiçik bir kitabçaya yerləşdirmək imkan xaricində olduğundan mən sadəcə bəzi məsələləri oxucunun diqqətinə çatdırmaq istərdim.

Yeri gəlmişkən, Kazım müəllimin Əli səxavətinə bənzər bir əməlini qeyd etmək burda yerinə düşər.

1948-ci ilin qışında Xudata atasının yanına gedir ki, ailə üçün ondan nə isə alıb gətirsin. Moskva – Bakı qatarına minib evə qayıdanda vaqonda bir kişi ona – «*oğul, üçüncü sutkadır ki, yol gəlirəm, sən gördüyüm ilk azərbaycanlısan*» — deyir. 1937-ci ildə həbs edilmiş Gürcüstanın Soğanlı kəndindən olan Talıb Güləhmədov adlı bu kişi deyəndə ki, – «*üç gündür ağzıma sudan başqa heç nə dəyməyib.*» Kazım müəllim düşünmədən, əlində olan iki kilo qəndi ona verib deyir ki, şərbət edib için. Sibirdən Moskvayadək birtəhər gəlmiş, orada gödəkçəsini satıb Bakıya bilet almış kişinin heç nəyi olmur. Kazım müəllim onu evlərinə dəvət edir. Kişi balalarını görməyə tələsdiyini deyib etiraz edir.

– Bəs pulun yoxdur, necə gedəcəksən soruşanda, kişi – «*piyada da olsa gedəcəyəm*» — cavabını verir. Kazım müəllim cibində olan 147 manatı da ona verib evlərinə gəlir.

O, sonrakı illərdə Gürcüstanda ezamiyyətdə olduğu vaxtlarda da Talıb kişini axtarmış, qəlbini sevindirmişdi.

Mən deyirəm ki, belə bir işi milyondan bir adamın etməsi böyük məsələdir. Bunu Əli səxavətli adamlar, əsil kişilər edə bilər.

Kazım müəllim çox ədalətli adamdır və həmişə haqqın, ədalətin tərəfində durmuş, haqqı nahaqqa verməmişdir. 1970-ci ildə bir məktəbli qızın şikayətini araşdırdıqdan sonra, qəzetdə məktəb direktorundan «Ləkə» adlı tənqidi məqalə ilə çıxış edir. Məktəb

direktoru işdən azad edilir. Uzun müddət işsiz qalan müəllim redaksiyaya gələrək Kazım müəllimə müraciət edir. Kazım müəllim Maarif naziri Mehdi Mehdizadəyə zəng vurub müəllimə kömək etməsini xahiş edir. Müəllim ixtisası üzrə işə bərpa edilir. Tənqid olunan, işdən qovulan və Kazım müəllim vasitəsilə doğru yola qayıdan müəllim ona gözəl bir şeir həsr edərək minnətdarlıq edir.

Kazım müəllim iş yoldaşlarına, tabeliyində olanlara qarşı həmişə diqqətli, onların problemlərinin həllinə çalışan adam olmuşdur. Xarici dili müstəqil şəkildə öyrənərək bu gün öz evində fərdi şəkildə övladlarımıza ingilis dili öyrədən və bununla maddi ehtiyaclarını təmin edən bir xanım «Kommunist» qəzetində Kazım müəllimin şöbəsində çalışarkən, qardaşının ali məktəbə o vaxt Xalq Təsərrüfatı, indi isə Dövlət İqtisad İnstitutuna qəbulla problemi yaranır. Zəhmətkeş ailədən olan istedadlı və savadlı gəncə kömək etmək üçün Kazım müəllim adının təmiz qalması və şəffaflıq xatirinə işçisini də özüylə götürərək ali məktəbin rektorunun qəbuluna gedir. Rektora «*bu xanım bizim əməkdaşdır və zəhmətkeş ailədəndir. Xahişimiz odur ki, onun qardaşından düzgün imtahan götürülüb biliyi ədalətli qiymətləndirilsin.*» — deyir. Beləliklə həmin oğlan ali məktəbə qəbul olunur və oranı yüksək qiymətlərlə bitirir. Kazım müəllim bu gəncə zəmanət verməkdə onun istedadlı və savadlı olmasını deməkdə səhv etməmişdi. Bu gün həmin cavan oğlan tanınmış iş adamı – respublikanın ən böyük səhmdar banklarından birinin prezidentidir.

Kazım müəllim kömək üçün ona müraciət edənlərə qarşı həmişə həssaslıq göstərmişdir.

4 il əvvəl imtahan verib Sumqayıt Tibb texnikumuna qəbul olunan qızın sənədləri kiminsə səhvi üzündən, ya qəsdən dolaşığa düşüb adı məktəbə girənlər arasına düşmür. Valideynləri prokurorluğa müraciət edirlər. Prokurorluq məsələni araşdırıb qızın imtahanlardan müvəffəqiyyətlə çıxdığını müəyyənləşdirib məktəbə məktub yazır ki, uşaq texnikuma bərpa olunmalıdır. Ancaq məsələ öz həllini tapmır. Hər yerdən əlləri üzülən fəhlə ailəsi «Kommunist» qəzetinə Kazım müəllimə müraciət edir. Kazım müəllim qızın imtahanlardan müvəffəqiyyətlə keçdiyini müəyyənləşdirdikdən sonra nazirə müraciət edərək çox böyük zəhmət hesabına da olsa, qızı texnikuma qəbul etdirir.

Digər belə bir faktı qeyd etməyə bilmirəm. Növbəti məzuniyyətdən əvvəl Tovuz rayonuna getməli imiş. Redaksiyanın poçtundan məktubları araşdırarkən Tovuzdan yazılmış bir məktub diqqəti cəlb edir. Məktubu çantasına qoyub yolda oxumağa qərarlaşdırır. Şikayət ərizəsi ilə tanış olarkən məlum olur ki, Tovuz rayonunda kiçik tibb işçisi kimi çalışan Əzizə adlı bir qız altı il ardıcıl olaraq Azərbaycan Dövlət Pedaqoji İnstitutuna imtahan vermiş, altı illik stajı olduğuna baxmayaraq müsabiqədən keçə bilməmişdir.

Bu fakt Kazım müəllimi çox narahat edir. Təlimata görə ixtisası üzrə iki il iş stajı olanlar müsabiqədənkənar ali məktəbə qəbul olunmalı idilər. Tovuzda

olarkən şikayətçini axtarır. Qızın əvəzinə anası gəlir və qızının Bakıda olduğunu bildirir. Jurnalist imtahan vermiş qızın redaksiyaya gəlməsini tapşırır.

Kazım müəllim Bakıya gəldikdən və Əzizədən məsələni bir daha dəqiqləşdirdikdən sonra məzuniyyətə getməli olduğu halda və əlində istirahətə göndərişi olmasına baxmayaraq, ali məktəbə gedib qəbul sənədlərini yoxlamaq üçün tələb edir. Təhsil müəssisənin əlaqədar işçiləri artıq gec olduğunu, dərslərin başladığını deyib sənədləri vermək istəmirlər. Məsələ Mərkəzi Komitənin əlaqədar kuratoruna qədər çıxır. MK işçisi Kazım müəllimi əmin edir ki, rahatlıqla məzuniyyətə gedə bilər, qayıdanda qızı tələbə kimi görəcək. Doğrudan da Əzizə noyabr ayının sonunda ali məktəbə qəbul olunur.

Kazım müəllimin təhsil – pedaqoji sahədə və ümumiyyətlə, məktəbdarlıqla bağlı, xidmətlərini işıqlandırdığı neçə-neçə müəllim, məktəb direktoru – «əməkdar müəllim», «maarif əlaçısı» və digər mükafatlarla təltif olunmuşlar.

Uzun illər elm və təhsilin təbliği ilə məşğul olduğundan millətin intellektual səviyyəsinin inkişafı onun üçün həmişə önəmli olmuşdur. Gözlərinin nurunu yenicə itirdiyi vaxtlarda bir dostu ilə Səməd Vurğun bağında dincələrkən, ondan soruşur ki, bağdakı oturacağlarda dincələnləri saysın va neçə nəfərin qəzet və ya kitab oxuduğuna diqqət yetirsin. Dincələnlərin 85 nəfər olduğunu və heç kəsin də qəzet və kitab oxumadığını deyəndə, Kazım müəllim

bundan bərk kədərlənmiş uzun müddət bu məsələ onun fikrindən çıxmamışdı. Bu hadisını mənə danışanda qeyd etdi ki, əvvəllər parkda dincələnlərin 90 faizi qəzet, kitab və jurnal oxuyurdu. Bu günsə tum çırtdayıb saqqız çeynəyirlər. **Elmdən uzaqlaşan xalqın inkişafı, gələcəyi ola bilməz. Allah bizə rəhm eləsin!**

XX əsrin ikinci yarısında maarif – elm və təhsil sistemi ilə bağlı heç kəsə Kazım müəllim qədər sayca və mahiyyət etibarilə daha mənalı və təsiredici məqalələr yazmaq nəsib olmamışdır desəm, düşünürəm ki, səhv etmərəm.

Kazım müəllim hələ lap gənc yaşlarında Xaçmaz rayonunun Çarxı kəndində işlədiyi dövrdə Nadya adlı rus dili müəllimәsini Babayev familiyalı müəllimin sıxışdırdığını gördükdə, ucqar bir yerdə köməksiz qalan gənc qızı müdafiə edir.

Babayev kolxoz sədrinin dostu olduğundan onun əliylə yaşı çatmadığı halda Kazım müəllimi dəfələrlə müharibəyə səfərbər edilənlərə qoşub cəbhəyə göndərilməsinə cəhd edir, lakin Kazım müəllimin pasportunda yaşı 17 olduğuna görə buna nail ola bilmir.

Vaxtı gələndə o da səfərbər olunaraq hərbi məktəbə göndərilir. Artilleriya məktəbində oxuyub zabit olur və cəbhəyə göndərilir. Gördüyümüz kimi, ən qızğın döyüşlərdə, bombardmanlardan, güllə yağışından, yol qəzalarından xilas olaraq doğma yurda qayıtmış və çox xeyirxah bir işdə – jurnalistika

sahəsində qələmlə çalışaraq xalqına, dövlətinə xeyir verməyə səy etmişdir.

Maraqlısı odur ki, vaxtilə gənc müəlliməyə göz verib-işıq verməyən və Kazım müəllimin özünə də pislik etməyə çalışmış həmin Yusif Babayev 25 il sonra Kazım müəllimin hüzuruna gəlib ondan kömək diləyir və dostumuz hər yerdən əli üzülən bu adamın problemini elə o gün həll etmişdi.

Bakı qəzetində işlədiyi dövrdə əməkdaşlardan Tofiq adlı birisi Tbilisidən rəssamlarımızın sərgisindən informasiya hazırlayır. Məlumat operativ görünsün deyə Kazım müəllim yazının əvvəlinə – Tbilisidən telefonla – sözlərini əlavə edir. Müəllifə deyir ki, material Tbilisidən olduğu üçün mühasibat sənə qonorar verməyə bilər, bəlkə yaxın qohumlarından birinin adına yazaq. Qonorarı onun bacısının adına yazırlar. Kazım müəllim məzuniyyətdə olduğu dövrdə Tofiq bu işi bir neçə dəfə təkrarlayıb bacısının adına qonorar yazdırır. Məsələdən xəbər tutan Nəsir müəllim onu işdən azad edir. Məzuniyyətdən qayıdan Kazım müəllim bunu eşidəndə Tofiqin ağır ailə vəziyyəti gözləri önünə gəlir. Nəsir müəllimin yanına gedib bu işdə bir növ özünün də günahkar olduğunu deyərək Tofiqin işə qaytarılmasını təkidlə xahiş edir və buna nail olur.

Çox maraqlıdır ki, Kazım müəllimin uzun illər dostluq etdiyi adamların bir çoxu ilə mən də yaxın münasibətdə olmuşam. Xalq şairi Nəbi Xəzri, müstəqilliyə qovuşduqdan sonra şeir yaradıcılığını üzə çıxarıb «Divan» bağlamış, bir çox kitabların

müəllifi, dövlət və maarif xadimi Ənvər Nəzərli, mətbuat komitəsində bir yerdə çalışdığım çox hörmətli şəxsiyyət, gözəl qələm sahibi polkovnik Məmmədhüseyn Muradov, tikinti naziri olmuş Əlimuxtar Hüseynzadə, müəllimim və xətrimi çox əziz tutan Nəsir İmanquliyev, cəmi bir dəfə görüşməklə mənə xeyirxahlıq etməyə çalışmış Rza Quliyev, bu gün yaxın münasibətdə olduğum Hacı Əhməd İsayev, Hacı Qüdrət Piriyev, Əlipənah Bayramov, İsaq Əmənullayev və digərləri Kazım müəllimi həmişə xoş xatırlayırlar.

Yeri gəlmişkən burada Kazım müəllimin Nəsir müəllimlə dostluğundan bir neçə kəlmə demək istərdim. Nəsir müəllim mənim özümə də dəfələrlə müxtəlif səviyyələrdə köməyini təklif edərək yaxşılıq etmək istəsə də nədənsə bu xoş təsadüflərdən istifadə etməmişəm.

Kazım müəllim «Bakı» qəzetində işləyərkən görkəmli alim Koqnovitskidən ona miras qalmış bir otaqlı, şəraitsiz otaqda yaşayırmış. Heç mənzil növləsində də deyilmiş. Onun ailə vəziyyətindən xəbərdar olan Nəsir müəllim hər şeyi gözüylə görmək və ona kömək etmək məqsədilə bir neçə dəfə Kazım müəllimə deyir ki, evdə bir qonaqlıq təşkil elə gələk. Onun maddi durumu o qədər də yaxşı olmadığından özünü eşitməzliyə qoyur, dövr də bir qədər çətin dövr idi. Həm də redaktoru belə darısqal, şəraiti olmayan evə gətirməyə də utanırdı.

Bir gün yüngül bazarlıq edib Asiya xanıma tapşırır ki, yemək hazırla Nəsir müəllim bizə gələcək. Nəsir müəllim onların evi ilə və vəziyyətlə tanış

olduqdan sonra qonşuların kim olması ilə də maraqlanır. Ertəsi gün redaksiyada Kazım müəllimin redaktora əla qonaqlıq verməsi xəbəri yayılır. Əslində isə elə bir qonaqlıq olmamışdı. Sadəcə redaktor yüngül şam yeməyini əla qonaqlıq kimi qələmə vermişdi. 7-8 gündən sonra isə redaktor Kazım müəllimi yanına çağırıb, bir qonaqlıq da borclu olduğunu deyərək ona yeni mənzil alacağı barədə xoş xəbər verir.

Burada bir haşiyə çıxmaya bilmirəm. Kazım müəllim 25 yaşında Böyük Vətən müharibəsi iştirakçısı olduğu halda, yuxarıda haqqında danışdığımız Koqnovitskinin birotaqlı mənzilinin onun adına sənədləşdirilməsi imkanı yaranır. Daha doğrusu, Koqnovitski öz evini Kazım müəllimə verərək özü Kazım müəllimin jurnalistikada ilk müəllimi olan Monastırskinin evinə köçmüş və burada vəfat etmişdi. Kazım müəllim yaxşılıq unudan deyil. Öz xatirələrində dönə-dönə müəllimi Monastırski və xeyirxahı olmuş Koqnovitskinin adını dəfələrlə çəkir. Bundan başqa Kazım müəllim bu ailələrin hər ikisinə sonrakı illərdə əlindən gələn köməyi etmişdir.

Koqnovitskinin qızı atasının mənzilində olan əşyaların biri – babasından qalmış şahmat taxtası istisna olmaqla, hamısını Kazım müəllimə – qeyri-millətdən olan adama bağışlamış və demişdi ki, *mənim atam sənin xətrini o dərəcədə istəyirdi ki, mən o mənzildən heç nə götürə bilmərəm.* Mənzilin Kazım müəllimin adına sənədləşdirilməsi üçün «Kommunist» qəzeti redaksiyasından heç bir öhdəlik

tələb olunmayan sadə bir məktub lazım olur. Özümüzdən olub öz kollektivinə düşmən, – mən onu başqa cür adlandıra bilmirəm, – redaktor, müharibə veteranına, çox istedadlı bir jurnalistə bu məktubu verməkdən imtina edir. Kazım müəllim sonrakı xatirələrində də bu adamın ermənilər üçün redaksiyada necə gözəl şərait yaratdığından, özümüzküləri və yaxşıları isə sıxışdırdığından söhbət açır. Respublikada erməni dilində «Kommunist» qəzeti, «Qrakan Azerbaydjana» ədəbi-bədii jurnalı və bəs qədər digər mətbu orqanları olduğu halda, ermənilərin Azərbaycan dilində çıxan nəşrlərə gətirilməsinə və ölkə paytaxtı Moskvaya Azərbaycan dilində nəşr olunan qəzetin müxbiri kimi göndərilərək orada daimi mənzillə təmin olunmaqla əlavə yüksək şəraitlərin yaradılmasına nə ehtiyac var idi. Görünür, bu adamın təbiətində ermənilərə və «böyük xalqlara» yarınmaq, öz millətinə qarşı pislik etməklə daim haqsızlıq etməkdən həzz almaq xisləti olub.

Kazım müəllimin xüsusi hərbi təhsili olmadığı halda, bir erməni polkovniki arxa tarixlə sənədləşdirib, onun təkrar hərbi xidmətə göndərilməsinə nail olur. Orduya gedərkən – «sutkanın hansı vaxtı gəlsən öz yerində işləyəcəksən» deyən redaktor, tərxis olunduqdan sonra Kazım müəllimi öz yerinə bərpa etməkdən imtina edir.

Redaktordan məktub ala bilməyən Kazım müəllim, şəhər soveti sədrinin birinci müavinini tanıdığını yadına salır və onun yanına gedir. Qeyri-millətdən və dindən olan vəzifə sahibi onu yaxşı qarşılayır və Kazım müəllimin yaşadığı rayonun

əlaqədar rəhbərliyinə zəng vurur. Məsələnin müsbət həll edilməyəcəyini görüb siyirməsindən kağız çıxarıb öz otağında Kazım müəllimə ərizə yazdırır və ərizə boyu qırmızı qələmlə «**Mənzil Kazım Ələkbərovun adına keçirilsin**» süzlərini yazaraq Kazım müəllimə təcili binanın zirzəmisində yerləşən kargüzarlığa düşüb order almasını tapşırır. Beləliklə, Kazım müəllimin mənzil məsələsinin sənədləşdirilməsi bir gündə həll olunur. Redaktorun pisliyi özünə qalır.

Nəsir müəllimlə bağlı Kazım müəllim deyir ki, – *onunla işdə yox, kənarda dostluq elə gör necə kişidir.* Və Nəsir müəllimin səfər vaxtı necə səxavətli olmasından, heç kəsə pul xərcləməyə imkan verməməsindən öz işçilərinə hər cür şərait yaratmasından ürək dolusu söhbət açır.

Kazım müəllim «Bakı» qəzetində işlədiyi dövrdə qardaşı Tələt bərk xəstələnir. Həkimlər Moskvada müalicəsini məsləhət bilirlər. Kazım müəllim məzuniyyət götürüb qardaşını Moskvaya aparmaq istəyir. Redaktorun yanında olarkən Nəsir müəllim ona deyir ki, *Kazım get işin uğurlu olsun, Allah qardaşına şəfa versin! Ancaq unutma ki, sənin burada Nəsir kimi dostun-qardaşın var, nə çətinliyin olsa utanma zəng et de.* Nəsir müəllim bunu deməklə bərabər onun yazılarına yüksək qonorar ödətdirib yardım da göstərir.

İş elə gətirir ki, qardaşı Moskvada əməliyyat olunduqdan sonra hələ bir xeyli müddət də orada müalicə üçün qalmalı olur. Nəsir müəllim Kazım Ələkbərova daha bir ay Moskvada qalmasına şərait

yaradır, əmək haqqı ilə bərabər, əlavə ezamiyyət xərclərinin də ödənilməsinə sərəncam verir.

Bu yerdə uzun illər Nəsir müəllimlə birgə onun tabeçiliyinə «Bakı» qəzetində ədəbiyyat şöbəsinin müdiri kimi 20 ildən artıq çalışmış və özünü həmişə onun tələbəsi hesab etməklə ona ömür boyu borclu olduğunu deyən və yazılarında bunu dönə-dönə etiraf edərək ona rəhmət diləyən yaxın dostum Hacı Ağəddin Mansurzadənin bir xatirəsini burada qeyd etmək istərdim: Azərbaycanın yeganə poliqrafçı alimi və mənim də həyat və poliqrafiyada müəllimim olan Şəddat Cəfərov Moskvada namizədlik dissertasiyası müdafiə edəcəkmiş. Ağəddin müəllim redaktora müraciət edərək dostunun müdafiəsiylə əlaqədar öz hesabına bir həftəlik məzuniyyət istəyir. Nəsir müəllim ona öz hesabına deyil, redaksiyanın hesabına iki həftəlik yaradıcılıq ezamiyyəti verməklə Moskvada yazacağı məqalələr üçün də irəlicədən yüksək qonorar və redaksiyadan maddi yardım etməklə, mehmanxanada yerləşdirilməsi üçün respublika nümayəndəliyinə məktub da verir. Nəsir müəllim belə adam, belə kişi idi.

Kazım müəllim, sevdiyi insanların, xüsusilə dünyasını dəyişmiş, həyat müəllimləri – dostlarının xatirəsini yaşatmaq üçün bacardığını edib, neçəsi haqda xatirə yazmış, ən çox sevdikləri haqqında isə xatirə ilə bərabər portretlərini də rəssama çəkdirmişdir.

Hələ ilk redaktoru olmuş Rza Quliyevin portretini çəkdirəndə deyirdi ki, çox yaxşı xeyirxah bir insan, əsil kişi hesab etdiyim redaktorum, müəllimim olmuş Nəsir İmanquliyevin də portretini çəkdirmək

istəyirəm. Ancaq kimə göndərəcəyimi qərarlaşdıra bilmirəm. Həm də deyirəm ki, kimsə düşünə bilər ki, nəsə umacağım var. Mənim indiki vəziyyətimdə Allahdan başqa heç kəsdən umacağım yoxdur. Dövlətimizdən, sağ olan iş yoldaşlarımdan tanıdığım və xoş münasibətdə olduğum vəzifə sahiblərindən də çox razıyam.

Nəsir müəllimin portretini çəkdirməklə qəlbimdə bir rahatlıq tapmaq istəyirəm. Bu Kazım müəllimin qəlbinin istəyi idi. 2011-ci ildə Nəsir müəllimin yüz illiyi keçiriləcəyindən istədiyini həyata keçirmək imkanı yarandı və Kazım Ələkbərov keçmiş redaktoru sevimli müəllimlərindən biri, Nəsir İmanquliyevin portretini çəkdirərək onun 100 illik yubileyinə ərməğan etdi.

Nəsir müəllimin Kazım Ələkbərova xüsusi rəğbət və məhəbbəti olub.

«Bakı» qəzetində işləyərkən Kazım müəllim «Kommunist» qəzetində yeni yaradılan şöbəyə müdir vəzifəsində işləmək təklifi alır. «Kommunist» qəzetinə getdikdən sonra Nəsir müəllim onların evlərinə zəng vurub Asiya xanıma deyir ki, qoy Kazım qayıtsın «Bakı» qəzetinə, mən ona iki ay ərzində dördotaqlı mənzil almağa söz verirəm. Təbii ki, Kazım müəllim tamahkar deyildi, «Kommunist» qəzeti də onun əvvəlcə işlədiyi doğma kollektiv olmaqla Mərkəzi Komitənin orqanı və ölkənin baş qəzeti idi. Bu həm də onunçün yüksəliş idi. Beləliklə, Nəsir müəllimlə dostluq və əməkdaşlığı davam etdirməklə «Kommunist» qəzetində qalmalı olur.

Nəsir müəllimin bu ailəyə nə qədər doğma olması Kazım müəllimin xatirə kitablarında verilmiş şəkillərdən də görmək olar. Şəkillərin birində redaktor Nəsir İmanquliyevin Kazım müəllimin beş yaşlı sevimli qızı Sevinci doğma balası kimi qucaqladığını görürük. Hər ikisinin – Nəsir müəllimin də Sevincin də üzündə özünəməxsus bir məsumluq var. Deyirlər göz ürəyin aynasıdır. Nəsir müəllimin gözlərində uşağa olan məhəbbətlə yanaşı dərinlikdə hardasa bir həsrət və nisgil də duyulur. Bu bəlkə Cənub həsrəti, yurd həsrəti, və daha nələr... Doğrusunu Allah bilir. Şəklə baxdıqca baxdım və bir anlıq haqq dünyasında olan rəhmətlik müəllimimlə Sevinc xanımın birgə simaları xəyalımda canlandı. Allahdan Nəsir müəllimə rəhmət, Sevinc xanıma isə xoşbəxtlik dilədim!

Kazım müəllim üçün yerliçilik məfhumu yoxdur. Bununla belə onun ata-babalarının doğulub, yaşadıqları, torpağa tapşırıldıqları və özünün böyüdüyü Balaxanı kəndinin adını burada çəkməyə bilmirəm. Bu kəndin adamları tarixən zəhmətkeş, mərhəmətli, dindar və elmə həvəskar olublar. Balaxanı kəndi Azərbaycan tarixində Neft sənayesinin inkişafında, 1905-1907 və 1918-ci illərdə erməni daşnaklarına qarşı mübarizədə xüsusi yeri olmaqla özünün görkəmli ziyalıları ilə də tanınır. Bakıda fəaliyyət göstərən ilk məktəblərdən biri olan Mirzə Ələkbər Sabir məktəbi ötən əsrin əvvəllərində məhz bu kənddə açılmışdır.

Əslən Balaxanıdan olan, Kazım müəllim 1924- cü il avqust ayının 12-də sübh namazı vaxtı

Kürdəxanıdakı bağlarında dindar və ziyalı bir nəslin nümayəndəsi olan Zahirhüseyn müəllimin ailəsində «Şir» bürcü altında dünyaya gəlib. Belə adamlar həmişə mübariz olurlar. Müəllim də yuxarıda qeyd etdiyim kimi ən ali sənətdir. Belə ki, ilk müəllim Allahın özü olmaqla elmləri Adəmə öyrətmişdir. Kazım müəllim də təhsil aldıqdan sonra əmək fəaliyyətinə məhz müəllim kimi başlamışdır. Onun babaları böyük iman sahibi, dindar adamlar olmuşlar. Hüseyn aşiqi olan babası öz övladlarına Raqibhüseyn, Mahirhüseyn, Tahirhüseyn və Məmmədhüseyn adlarını qoyub. Kazım müəllimin atası Zahirhüseyn sonralar adını dəyişərək Hacıhüseyn etmişdi. Təkcə bu adların mənasına varsaq, övladlarını bu ismlərlə adlandıran şəxsin nə qədər islama bağlı olduğunu görərik. Bu adları daşıyanların hər birinin həyatı neçə-neçə kitaba sığmayan qəhrəmanlıqlarla doludur. Onların hər biri yüksək vətənpərvər olmaqla ömürlərini öz xalqının inkişafına fəda etmiş insanlardır. Biri 14 yaşında qardaşının yerində əsgər getmək istəyən, digəri Staxanovçu – qurultay nümayəndəsi, bir başqası rayon partiya komitəsinin I katibi və Solovki adalarına sürgün olunmuş, azad olunduqdan sonra uzun illər öz vətənində təqiblərə məruz qalmış xalq müəllimi – yaraşıqlı, boylu-buxunlu, şir kimi bir kişi – Kazım müəllimin atası Zahirhüseyn Ələkbərov. Müəllimlik edən Zahirhüseynə müsavatçı damğası vurub sürgün etdikdən sonra onun ailəsi min cür məşəqqətlərə düçar olub. Sürgündən qayıdan müəllimi Bakıda işləməyə qoymurlar, 16 il müxtəlif

rayonlarda fəhlə, hesabdar və digər vəzifələrdə çalışır və hər yerdə təqib olunduğundan şimali Qafqaza köçməli olur və burada adını dəyişərək Hacıhüseyn edir ki, daha onu narahat etməsinlər. Bir məsələni diqqətinizə çatdırım ki, 30-cu illərdə sürgün edilənlərin demək olar ki, hamısı boylu-buxunlu, yaraşıqlı, sözü camaat arasında eşidilən, hörmət sahibi, seçilmiş, təmiz adamlar olmuşlar. Mən Moskvada «Panorama Azerbaydjana» qəzetində, nəşrin təşkili və yayımı üzrə baş redaktorun müavini işlədiyim dövürdə Orta Asiya respublikaları və Sibir şəhərində ezamiyyətdə olarkən, vaxtiylə bu yerlərə sürgün edilmiş azərbaycanlılarla görüşlərimdə bunun şahidi olmuşam. Bizim də kəndimizdən ancaq bu cür adamlar sürgün olunmuşdu. 1956-cı ildən sonra Sibirdən kəndimizə qayıdanlar uzun illər sürgündə olmalarına baxmayaraq, öz boy-buxunları, əxlaqı, təmkin və müdrikliyi ilə digərlərindən çox fərqlənirdilər.

İnsanın taleyi bir anın içində dəyişərək ən yüksək səviyyəyə qalxa bilməsilə bir anda məhvinə də hökm verilə bilər. Kazım müəllimin əmilərindən biri Biləsuvar rayonun I katibi, digəri isə Staxanovçu, qurultay nümayəndəsi olur. Biləsuvar rayonunda I katib işləyən əmisinin Azərbaycan KP MK Bürosuna üzv seçilməsi təklif olunduqda, kimsə qardaşı müsavatçıdır deyə yerdən replika atır. Digər qardaşı olan qurultay nümayəndəsi onu müdafiə etmək istədikdə hər ikisi rəhbərin qəzəbinə tuş gəlir. Staxanovçu neftçi, mədəni yandırmaq istəməsiylə şərlənib həbs edilir. Qardaşının günahsız yerə həbs

olunduğunu görən I katib işləyən digər Ələkbərov isə ona da növbə çatacağını bildiyindən, adının təmiz qalması üçün özünü güllələyir.

Çox gənc yaşlarında Sovet quruculuğu yolunda canlarını fəda etməyə hazır olan qardaşlar – təmiz insanlar bir namərdin replikası ilə repressiyaya məruz qalıb yersiz qurban gedirlər.

Həmişə qəlbində Allah eşqi gəzdirən Kazım müəllim «Jurnalist ömrünün akkordları» kitabının əvvəlində yazır ki, «Tanrımdan çox razıyam. Onun gücü ilə odun-alovun içindən çıxmış, bu yaşa gəlib çatmışam». Uca Allah məhz belə bir nəsildən, belə bir kökdən və ailədən olan, bütün hallarda ondan razı qalanları imtahan üçün seçir. 15 iyul 1992-ci ildə qələmə aldığı «*Allahın gücü*» adlı xatirə yazısını da burada yada salmaq yerinə düşər: — «*Ta uşaqlıqdan «Allah saxlamış*», «*Allah saxladı*» məfhumlarını çox eşitmişəm... Daxilən Allaha inanmış, onun gücünə səcdə etmişəm». Bu yazısında müəllif müharibə dövründə, tabeliyində olan əsgərlərin vəziyyətini öyrənmək üçün  kompassız gecə vaxtı, minalanmış Belarusiya meşələrində dolaşanda və batareyalarına yarımtonluq bomba düşən zaman sağ qalmış, xəta ondan yan keçmişdi.

1945-ci ilin yanvarın 17-də Varşavanı azad etdikləri vaxt yaşlı həmkarının təklifiylə özünün düz yolda olan toplarının yanında onun getməsi, zığın-palçığın içindəki topların yanında isə özünün getməsi təklifi ilə razılaşır. Yola düşərkən Kazım müəllimin zığda olan toplarla kənara çıxmağını gözləməyən yaşlı həmkarının mindiyi maşın hərəkətə düşür və bu

anda çoxdan yolda basdırılmış minanın partlaması nəticəsində maşının qabaq təkəri 40-50 metr göyə uçur. Ağır tonnajlı nəhəng tankı şəxsi heyətiylə məhv edən minanın bu dəfə təkcə təkərə xələl yetirib bir neçə nəfərin və onun həmkarının yüngül zədələnməsiylə nəticələnən partlayış törətməsi qəribə görünür. Halbuki, həmən maşında onlarla yeşik top mərmisi olur. Əgər onların biri partlamış olsaydı, sözsüz ki, digərləri də partlayar və yaxın ərazidə olan maşınlardakı mərmilər və digər hərbi sursat da partlamaqla yüzlərlə insanın həyatına son qoyulardı. Kim bilir əgər Kazım müəllim o maşında olsaydı nə olardı.

Ordudan tərxis olunduqdan sonra kitab passajının yanından keçərkən üçüncü mərtəbənin balkonundan onunla yanaşı gedən azyaşlı uşağın arasına kərpic düşür. Bunlar təsadüfdürmü? Xeyr, hər üç halda Allah Kazım müəllimi qorumuşdu.

Yeri gəlmişkən qeyd edim ki, bütün müharibə dövrü Kazım müəllimin xidmət etdiyi hərbi hissədə ən mühüm məsələləri ona tapşırmışlar. Kazım müəllim xatirələrini yada salıb deyir ki, Pripyat çayının üstündə döşəməsi olmayan taxta şpallar üzərində salınmış 950 metrlik taxta dəmir yol körpüsünün qorunması onların hərbi hissəsinə tapşırılmışdı, ən mühüm yerdə onun batareyası mövqe tutmuşdu. Körpünün qorunması çox mühüm məsələ olmaqla Ali Baş Komandanın nəzarətində idi. Bu körpünün vasitəsilə hər 15-18 dəqiqədən bir, çox böyük sürətlə 25-dən 40-a qədər hərbi texnika, sursatla dolu vaqon qoşulmuş ağır yüklü eşalonlar

keçir və qərb sahildə yerləşən ordu birləşmələrini ərzaq və sursatla təmin edirdi. Yüzlərlə düşmən təyyarələri gecə-gündüz körpüyə hücum etməyə cəhd etsələr də ona zərər yetirə bilmirdilər. Belə ki, toplarımız göydə alov zolağı yaradırdılar. Eyni vaxtda on minlərlə mərmi göyə tuşlanırdı. Bu körpünü qoruduqları dövrdə bir dəfə çox mühüm olan məxfi sənədi təcili olaraq digər sahildə yerləşən qərargaha çatdırmaq lazım gəlir. Adətən bu cür sənədləri aparmaq üçün əsgərlər nəzərdə tutulsa da bu dəfə sənədin çox mühüm əhəmiyyətli olduğu nəzərə alınaraq bu işin çox məsuliyyətli zabitlərdən birinə tapşırılması qərara alınır. Yuxarıda qeyd etdiyim kimi körpü yüngül olsun deyə şpalların arası açıq saxlandığından onların üstündən nə ki, sürətlə hətta asta yerişlə getmək də çox çətin idi. Belə ki, hər an büdrəyib on metr aşağıda olan buz kimi soyuq suya yıxılmaq təhlükəsi var idi. Təbii ki, sürətlə axan bir kilometrlik enindəki buz kimi soyuq suyu olan çayı üzüb keçmək də mümkünsüz idi. Bu halda mühüm hərbi tapşırığın icrası da təhlükə altında olardı. Komandanlıq bu işin zabit Ələkbərova tapşırılması qərarına gəlir və Kazım müəllim buradakı qoşunların qələbəsi üçün çox mühüm olan sənədi, qəhrəmanlıqla körpünü keçməklə qərargaha çatdırır və komandanlığın təşəkkürünü qazanır. Kazım müəllim o günləri yada salaraq deyir ki, körpünün üstündən iti addımlarla az qala qaça-qaça keçərkən çalışırdım ki, aşağıya baxmayım. Gözlərim ancaq şpalların üstünü görürdü.

Bir xatirəsində belə yazır: – «Mən üç yaşında ikən atamı müsavatçı kimi həbs etmiş, Solovki adalarına göndərmişdilər... Azyaşlı 3 uşaqla tək qalmış anamın vəziyyətini təsəvvür etmək... bir qolunda altı aylıq qardaşım»...Bu sətirləri həyəcansız oxumaq mümkün deyil. Sürgün olunmuş kişinin xanımının nələr çəkdiyini təsəvvür etmək... Aclıq, səfalətin, haqsızlığın tüğyan etdiyi bir dövr... çox çətindir. Bunları ancaq belə məşəqqətlərə düçar olanlar bilər.

Kazım müəllim dostluqda sədaqətli adamdır. Böyük Vətən müharibəsinin sonlarında Almaniya sərhədlərinin yaxınlığında olan bir şəhərdə Nelya Naboka adlı bir qızla tanış olmuş bir neçə dəfə evlərində özünün aldığı ərzaqla onlarla birgə çörək kəsdiyinə görə uzun illər bu evdə ona göstərilən səmimi münasibəti unutmamış, üstündən 30 il keçdikdən sonra Asiya xanımla bu şəhərdə turist səfərində olarkən onu axtarmış, tapmasa da sədaqətini göstərmişdi.

Kazım müəllim sədaqətli olmaqla yaxşılığı unudan deyil. 1957-ci ildə Kobuletidə Əliheydər adlı bir kişi ilə tanış olub evlərinə qonaq gedir. Kazım müəllim Bakıya qayıtdıqdan sonra kişi qarasına ona bir bağlama hədiyyə göndərir. Üstündən illər keçdikdən sonra 1976-cı ildə Kazım müəllim gözünün müalicəsi ilə bağlı Odessaya getmək üçün Bakı – Odessa qatarı olduğu halda yolunu Batumidən salır ki, dünyasını dəyişmiş Əliheydər kişinin qəbrini ziyarət etsin. Batumiyə gəlir və üç gün burada qalaraq bir neçə dəfə də onların evlərinə baş çəkir ki, kişinin övladları onu dostunun qəbrini ziyarətə

aparsınlar. Əliheydər kişinin övladları nədənsə bunu etmirlər.

Nə qədər tanınmış adamların qəbirlərinin övladları tərəfindən belə ziyarət edilmədiyini və bu qəbirlərin ot-ələf içində itdiklərinin şahidi olmuşam. **Camaat atasının qəbrini ziyarət etmir. Kazım müəllimsə buradan Batumiyə təsadüfən tanış olduğu və ona bir bağlama hədiyyə göndərmiş adamın qəbrini ziyarət etməyə getmiş və üç gün bu məqsədlə orada yubanmışdı.**

Yerinə düşər deyək ki, **«Tikənin qədrini bilməyən, dünyaca nemətin qədrini bilməz»**. Kazım müəllim tikənin qədrini bilən və yaxşılığı qiymətləndirən adamdır. Ona hər hansı bir yaxşılıq etmiş adamlara nə iləsə yaxşılıq etmək, borclu qalmaq istəmir. Vaxtilə ona qayğı göstərmiş indi haqq dünyasında olan Rza Quliyevin, Nəsir İmanquliyevin, Rəşid Mahmudovun, iş yoldaşı xətrini çox istədiyi Hacı Əhməd İsayevin, Əlimuxtar Hüseynzadənin, cəbhə dostu Ağadadaş Ağayevin Bakı Şəhər Icra Hakimiyyətində işlədiyi dövrdə ona qayğı göstərmiş, ilk kitabının nəşrinə kömək etmiş, çox gözəl və nurlu bir xanım Hacı Şəfəq xanımın, keçmiş iş yoldaşı Təranə xanımın, habelə bu sətirlərin müəllifinin portretlərini, rəssama çəkdirib hədiyyə etmişdir. Halbuki mənim qarşımda heç bir öhdəliyi yox idi. Mənim ona heç bir yaxşılığım keçməyib və yəqin ki bu şəkillərin hər biri üçün ödədiyi məbləğ mənim, sonuncu aylıq əmək haqqımdan xeyli çox olar.

Kazım müəllim dost yolunda canını da verməyə həmişə hazır olub, lakin onunla dostluq etmək istəyib

özünü ondan üstün tutmaq istəyənlərdən həmişə uzaq gəzib. Atalardan misal var *«dost dosta tən gərək, tən olmasa gen gərək».*

«Kommunist» qəzetində işlədiyi ilk illəri yada salanda danışdı ki, idarəmizdə çalışanlardan biri mənimlə çox yaxınlıq edir və həmişə işdən sonra dənizkənarı bulvarda onunla gəzməyimi istəyirdi. Mən də həmkarımın arzusuna müqabil onunla birlikdə bulvara gedər və bir qədər orada gəzişib söhbət edərdik. Günlərin birində yenə də axşamüstü bulvarda bərabər gəzişərkən həmkarım mənə ay Kazım sən məndən bir qədər arxada gəl ki, oturacaqlarda əyləşmiş adamlar məni yaxşı görsünlər. Onun bu sözü mənə çox qəribə göründü. O, da mənim kimi hündür boylu idi, şəvə kimi qara saçlarını geriyə darayar və yeriyəndə başını bir qədər də geriyə tərəf daha dik tutmaqla gedər, diqqəti cəlb etmək istəyərdi. Mən də heç vaxt ondan qabağa keçməz, bərabər yeriyərdik. Mənimlə dostluq etmək istəyən həmkarımın bu sözü heç xoşuma gəlmədi, necə yəni sən məndən bir qədər arxada gəl. Ona heç nə deməyib bulvarın axırına çatanda, mənim vacib işim var deyərək ondan ayrıldım. İş yoldaşımın təkidlə bir qədər də gəzişməyimizi xahiş etməsinə baxmayaraq ondan ayrıldım və sonrakı dövrdə də onunla bir daha Sahil bağına getmədim. Beləsindən adama dost olmaz.

Kazım Ələkbərov öz müəllimlərinə qarşı həmişə diqqətli mərhəmətli olmuş, onların qayğılarını həll etməyə çalışmışdır.

Bir gün sevimli coğrafiya müəllimi yanına gəlib bir mərtəbə ondan yuxarıda yaşayan vəzifə sahibindən şikayətlənib deyir ki, bu adam beş ildən artıq bir müddətdə onların evinə su axıdır. Müraciət etmədiyi yer qalmayıb. Heç kəs bu işə əncam çəkə bilmir. O, çox qısa bir müddətdə müəlliminin problemini həll edir.

Yazımın əvvəlində də müəllimdən söhbət etmişdim. Müəllim insan həyatında çox böyük payı olan bir şəxsiyyətdir. Seyyid Əzim Şirvani demişkən:

*Pədərin bir mənəm bir ustadın*

*Mən səni göylərdən endirdimsə də*

*O, səni göylərə qaldırar oğul.*

Mən də öz müəllimlərimə həmişə qayğı ilə yanaşmağa cəhd etmiş, borclarından çıxmağa çalışmış, nə isə öyrəndiyim ustadlarımın adlarını çəkərkən həmişə qürur duymuşam. Həzrət Əli demişkən: – «***kim mənə bir hərf öyrətmiş olsa məni özünə qul etmiş olar***». Ancaq elə adamlar var ki, kimdənsə nəyisə öyrəndiyini deməyə utanır və ya bunu etiraf etməyi özünə əskiklik sayır.

Mən hər yerdə tanınmış jurnalist və dövlət xadimi rəhmətlik Rəşid Mahmudovun, Nəsir İmanquliyevin, Kamran Hüseynovun, general Akim Abbasovun, xalq rəssamı Hüseyn Əliyevin, hazırda hər görüşündə nəsə yeni bir şey öyrəndiyim dövlət xadimi Sadıq Murtuzayevin mənim həyat müəllimlərim olduğunu deməkdən qürur duyuram. Respublikanın ilk poliqrafçı alimi Şəddat Cəfərovun bu sahədə mənim ustadım olduğunu qeyd etməklə, ona həmişə müəllim

deyə müraciət edir qulluğunda durmağa, borcundan çıxmağa səy edirəm. Bu gün Kazım Ələkbərovun yazılarını oxuyub oradan bir çox məsələləri, həyati incəlikləri əxz etdiyimdən onu da öz müəllimim hesab edirəm və bu, ömrümün sonunadək belə davam edəcək. İnsan doğulandan ölənədək öyrənməyə cəhd etməli və bildiklərini öyrətməlidir. Öyrəndikləri bir zərrə halında olsa belə yenə də onun hər iki dünyası üçün bir nur, bir işıq olacaq.

İyirmi il ərzində yaxın münasibətdə olduğum görkəmli alim Akademik İqrar Əliyev, tanınmış dövlət xadimi Kamran Hüseynov, ağsaqqallarım Rəşid Mahmudov və həkim-travmatoloq, Hacı Balağa Bağırov bütün bayramlarda bir gün əvvəl və ya səhər tezdən zəng vurub məni təbrik edərdilər. Mən bundan utandığımı onlara söyləyəndə, deyərdilər ki, ay bala siz cavansınız, biz irəlicədən zəng vururuq ki, siz də özünüzdən cavanlara zəng vurun, qoy əlaqə qırılmasın, millətimiz bir olsun, bir-birinə dayaq olsun. Müqəddəs Peyğəmbərimiz Muhəmməd Salavatullah həmişə qarşılaşdığı adamları onlardan əvvəl salamlamışdır.

İslam elmindən və müqəddəs «Quran»dan öyrəndiklərimizdən bizə məlumdur ki, Allahın əmri ilə ana bətnində uc qaranlıq pərdə arxasında laxtalanmış qandan yaranmış insan rüşeyminin ilk quruluşu ona deyilənləri eşidib yadda saxlaması üçün qulaq şəklində olub ərəb əlifbasının mim hərfinə bənzəyir və bu mim hərfinə bənzəyən ruşeyimin ilk duyğu üzvü də eşitmə orqanı qulaqdır. 3 qırx – 3 mərhələ yəni 120 gündən bir qədər sonra ana

bətnində ilk tərpənişində insanın cinsi müəyyən olunub, ömür yolu alnına yazılır. Göz, ürək və digər orqanlar formalaşdıqdan sonra 19 həftə başa çatdıqda eşitməyə başlayır. Eşitmə orqanının uca Allah tərəfindən birinci yerə gətirilməsi və qulağın iki, dilin bir olması Xaliqin göndərdiyi əmrləri dinləyib, idrak edərək icra etməsinə göstərişdir. 19 ədədi insan həyatında çox önəmli rəqəmdir. 1 və 9 əsli ədədlərin başlanğıc və sonunu özündə ehtiva edir. İnsanın biləyindən aşağı, əlində 19, bütün bədənində isə 209 sümük vardır. 209 da olan rəqəmləri topladıqda 11 alınır. 2+0+9=11. 11-in 19-a vurma hasili 209 edir. 19 həftəni təşkil edən 133 gündə olan rəqəmləri isə üst-üstə topladıqda 7 edir. Uca Allah insanı 7 mərhələdə, hər mərhələ 40 gün olmaqla ana bətnində 280 gündə formalaşdırıb dünyaya gətirir. Gördüyümüz kimi, insanın yaradılışı təsadüfi və adi bioloji proses deyil. Hər şey ölçülüb-biçilmiş, hesaba alınmışdır.

Müqəddəs kitabımız **«Quran»**da deyildiyi kimi, ***«Heç bir qadın hamilə ola bilməz və bari həmilini yerə qoya bilməz, heç bir yarpaq belə ağacdan yerə düşə bilməz əgər Allahın buna əmri olmasa»***.

Yazıya pozu yoxdur! İstisnalar olmasa.

Üca Allah ən çox sevdiyi məxluq insan – faili-muxtar yaratdığından əməlinə görə sorumludur.

Belə bir inam formalaşmışdır ki, daima yaxşı əməllər edib, xeyirxah işlər görmək haqqında düşünən, bir-birini ülvi məhəbbətlə sevən insanların ömrünü uca Allah uzadır. 63 illik həyatımda bir-

birini sədaqətlə sevən neçə-neçə insanın uzun ömür yaşamalarının şahidi olmuşam.

Məqsədim diqqətinizi Kazım müəllimin 86 yaşında gözlərinin nurunu itirməyinə baxmayaraq ağlı, düşüncəsi, yaddaşı yerində olmaqla iç dünyası-qəlbindəki məhəbbəti qoruyub saxlayaraq bu yaşda və bu vəziyyətdə başqalarını düşünməsi və uzun ömürlü olması, ömür-gün yoldaşı Asiya xanımın onu böyük məhəbbətlə sevməsinin nəticəsinə yönəltməkdir. Gözlərinin nurunu itirməsi isə uca Allahın onun özünü, xanımını, övlad və nəvələrini habelə bizləri imtahan etməsindədir. Görək kim bu imtahandan şərəflə çıxacaq. Uca Allah bu iki sevən insanı yaşatmaq və uzun ömürlü edib onları ətrafdakılara örnək göstərməklə bizləri bundan nümunə götürməyə sövq edir.

Mənə qalsa heç olmasa həftədə bir dəfə bu gözəl xislətli insanı ziyarət edərəm. Ancaq bu həmişə alınmır. Arzularımız imkanlarımızla uyğun gəlmir. **Xoşbəxt o insandır ki, arzuları ilə imkanları uyğun gəlsin.**

Yeni il qabağı Hacı Əhməd İsayevlə Kazım müəllimi ziyarət etdik. Müəllim və tələbə bir-birini uzun müddət görməyən iki dost, — iki həmkar qucaqlaşdı. Onların görüşünə mən sevindim.

Bu yaxınlarda Həcərul-Əsvəd daşını öpə bilmək səadətinin ona möcüzəli şəkildə qismət olduğunun şahidi olduğum, «Xalq qəzetinin» şöbə müdiri Hacı qardaşım, qələm dostum Qüdrət Piriyevlə Kazım müəllimi ziyarətə getmişdik. Kazım müəllimin

sevincinin həddi-hüdudu yox idi. İki saatdan çox söhbət etdik. Qocaman jurnalist özünün uşaqlıq və gənclik illərini, «AzTAq»da, «Kommunist» və «Bakı» qəzetində işlədiyi dövrləri, cəbhə xatirələrini yada saldı. Söhbətindən doymaq olmur, ondan ayrılmaq istəmirdik. Ancaq həm bizim o gün görüləsi başqa işlərimiz vardı, həm də 86 yaşlı kişini bu qədər gərginlikdə saxlamaq insafdan deyildi. Kazım müəllim bizi buraxmaq istəməsə də getməyə icazə istədik. Söhbət etdiyimiz müddətdə uzun illər Kazım müəllimə arxa-dayaq olmuş, ilk və son məhəbbəti heç vaxt üzündən təbəssüm əskik olmayan Asiya xanım yaşı 80-ni haqladığına baxmayaraq, gah çay gətirir, ya meyvə soyub doğrayır və daha bir paxlava, ya qoğal yeməyimizi xahiş edirdi. Ümumiyyətlə bu evə gələndə Asiya xanımı əyləşmiş görmürəm, elə hey Kazım müəllimin ətrafına pərvanə kimi dolanır və gələn qonağa qayğı göstərməyə çalışar, sanki bu təbəssimlə dünyaya göz açıb. Allah qorusun bu xanımı, məhəbbətini, təbəssüm və qayğıkeşliyini.

Kazım müəllim gözlərinin nurunu itirsə də, ilk baxışdan bu hiss olunmur. Öz daxili duyumu ilə tərəf müqabilinə doğru dönərək görməyən baxışlarını ona zilləyir. Gözlərində hiss olunacaq dərəcədə bir məhəbbət işığı təzahür edir ki, qəlbindən məhəbbətlə bəhrələndiyi duyulur. Bu gözlərin təbəssümü, məhəbbət işığı və hərarət daxildən gəldiyindən barmaqlarının uclarında belə duyulur, hiss olunur. Çox vaxt dil və gözləriylə hisslərini ifadə edə bilməyən insanlar onları əllərinin hərarəti və barmaqları ilə örtürlər.

Rəhmətlik Rəşid müəllim də belə həssas idi. Üzbəüz oturub söhbət etdiyimiz vaxtlarda görən adamlar tək qayğılandığımı duyar, gözlərimi onun üzünə zilləyəndə hiss edər, nə demək istədiyimi astaca mərhəmətlə məndən soruşar, bəzən də əllərimi tutar qəlbimdən keçənləri barmaqlarımın ucundan oxumağa çalışardı.

Hacı Əhməd İsayev, Hacı Qüdrət Piriyev ustadımız Rəşid Mahmudovdan danışarkən qeyd edim ki, mən də daxil olmaqla biz beşimiz Kazım müəllimlə birgə «Kommunist»in şinelindən çıxmışıq. Bu siyahıya ikisini də əlavə etsək müqəddəs yeddi rəqəmi alınar. Yeddi dedim Kazım müəllimin «yeddi» rəqəminin müqəddəsliyi ilə bağlı verdiyi sual yadıma düşdü. Bir qədər əvvəl bu rəqəmlə bağlı danışsam da Kazım müəllimin rəhmətlik Hacı Maili yada salaraq onun yeddi rəqəmi ilə apardığı tədqiqatlar və bu rəqəmin «Quran»da və dini ədəbiyyatda yeri ilə bağlı açıqlama istədi. Və mən telefonda mümkün qədər qısa bir izahat verdim. Burada da yeri düşmüşkən, törəmələri və oxuyanlar üçün yadigar qalsın deyə bir neçə kəlmə demək istərdim. Çox hörmət bəslədiyim gözəl qəzəlxan şair-tədqiqatçı Hacı Mailin özündən eşitdiyimə görə ömrünün iyirmi ilini Nəsiminin yeddi ilə bağlı bir beytinin açılışına həsr etmiş və buna nail olmuşdu. Beytin özünü vermək və şərhiylə bağlı bir neçə kəlmə demək burada yerinə düşər.

*Yeddidir, dörd yeddidən bir yeddidir.*
*Yüz iyirmi dörd yenə üç yeddidir.*

*Evi bir, bacası yeddi, babı üç*
*Əhli-beyt ilə özü on yeddidir.*

Bu beytlə bağlı mənim bildiyim belədir: - Birinci yeddi göylərin və yerin yeddi qat olması, dörd – dörd cəhət və insanın yaranışında dörd ünsürün: - torpaq, su, od, havanın iştirakı, bir yeddi insanın yeddi mərhələdə xəlq olunması, bir yeddi olan - Quranın ilk və yeddi ayədən ibarət olan «Fatihə» surəsinin namazda və ümumiyyətlə hər bir işin başlanğıcında təkrarlanması, Quranın 107-ci «Maun» surəsinin yeddi ayə olması; 124-un üç yeddi olması – «Fatihə» sürəsinin 124 hərflə yazılması, 124 min peyğəmbərin öz gəlişləri ilə üç yeddini təsdiyləyib, günün üç vaxtında ibadətin vacibliyini təbliğ etməsi: Evi bir, bacası yeddi, babı üç-də hər insanın Tək – Vahid – Bir olan Allaha fərdi olaraq təklikdə namaz qılıb səcdəyə getməsinin vacibliyi – belə ki, səcdə vaxtı insan bədəninin üç üzvünün: - baş, əllər və ayaqların yeddi hissəsi – alın, əllərin içi, diz qapaqları və ayaqların baş barmaqları yerə toxunmaqla səcdə icra olunur; Babı üç – insanın üç qaranlıq pərdədə yaradılışı, namaz qılarkən dili, qəlbi habelə qulağı ilə eşitməklə günün üç vədəsində – səhər, gündüz və axşam icra etməsi; Əhli-beyt ilə özü on yeddidir – burada gündəlik qıldığımız beş namazın əsası hissəsi olan «Fatihə» və «İxlas» və ya digər surələrinin mətninin, islama, bu dini gətirən Muhəmmədə görə Allah üçün on dəfə oxunuşuna Əhli-beyt xatirinə – zöhrdə iki, əsrdə iki, şamda bir, işada iki Allahı vəsf

edən rükətlərin əlavə edilərək on yeddi rükətə çatdırılmasını ehtiva edir.

Rəhmətlik Hacı Mailin və yaxud mənim şərhimin həqiqətə nə yədər yaxın olsa belə yəqin ki, ən doğru cavab və şərh yeddi ilə bağlı beyti, özünü Əhli-beyt dən hesab edən:

- *Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü şeş mənəm*

- *Kəs səsüvi və əbsəm ol, şərhü bəyanə sığmazam.*

Deyən şairin qəlbinə salıb dilində iqrar etdirən Uca Allah və şairin özü bilib.

Müqəddəs «Qurani-Kərim»də isə Allahın yeri və göyü yeddi təbəqədə yaratdığı, «Quran»ın birinci və 107-ci «Maun» surəsinin 7 ayə olması, yeddi dəniz mürəkkəb və əlavə yenə yeddi dəniz mürəkkəb olsa belə Allahın elminin yazılmasına bəs etməməsi, həftənin yeddi günü, Allahın yeri, göyləri və insanı altı gündə xəlq edərək yeddinci günü insanlar üçün dincəlməyi tövsiyə etməsi, Hud, Zəkəriyyə, Allahın dəvəsi, Fərqlənmə-yayılma kimi tərcümə olunan Furqan sözü 7, Adəm övladı 7, 7 sünbül, Allah hüzurunda durmaq 7, cəhənnəmin 7 qapısı, Ərrəhman surəsində cəhənnəm sakinlərinin adlarının 7 dəfə çəkilməsi, Muhəmməd Salavatullahın Allahın rəsulu olması və yeddi dəfə təkrarlanması bu rəqəmin müqəddəsliyinə işarə kimi qəbul olunmasına əsas verir.

Riyazi poetikanın bilicisi olan böyük azərbaycan şairi Nəsimi və digər müsəlman şərq şairləri yeddi rəqəmi ilə bağlı sirri açılmamış əsaslı tədqiqatlar tələb edən əsərlər yazıb qoymuşlar ki, zaman ötdükcə

adını hörmətlə çəkdiyim Hacı Mail kimi müasirlərimiz ömürlərini bu sirlərin açılmasına həsr edərək gələcək nəslə yadigar saxlayırlar.

Bu yaxınlarda Hacı Əhməd İsayev zəng edib rəhmətlik həmkarımız Sadıq Qarayevlə münasibətimin olub-olmadığını soruşdu. Onunla bağlı xatirə istəyirdi. Sadıq müəllimi bir və ya iki dəfə redaksiyada görmüşdüm. Heç bir münasibətimiz olmamışdı. Rəhmətlik Rəşid müəllim ondan çox danışar, həmişə onu xoş xatırlayar, deyərdi ki, *əsil dost idi, çətin vaxtlarımda yanımdan ayrılmazdı. Xüsusən qızım Dilbər 18 yaşında dünyasını dəyişəndə faciəmi mənimlə doğma qardaş kimi bölüşmüş, mənə dayaq olmuşdu.* Allah hər ikisinin ruhunu şad etsin!

Dedim ki, Əhməd müəllim mənim münasibətim olmasa da Kazım müəllimin yəqin ki, olar. Ondan xahiş edərik o deyər, mən də yazaram. Hacı dostum irəlicədən minnətdarlıq etdi. Bu məsələni Kazım müəllimə deyəndə: - yəqin ki, oğlu Azər atası ilə bağlı xatirələri toplayır dedi. Bir neçə gün sonrakı görüşümüzdə Asya xanımdan kağız qələm gətirməsini istədi. Mən düşünürdüm ki, Kazım müəllim Sadıq müəllimlə bağlı xatirəsini ümumi şəkildə danışar, mən də sonra yazıb onun üçün oxuyaram, ancaq belə olmadı.

Hazırsan? – deyə soruşduqdan sonra diqtə etməyə başladı: – «Cənub rayonlarının birinə, zona müxbirimizlə bağlı rayon rəhbərliyinin göndərdiyi şikayət məktubunu yoxlamaq üçün getməli idim…» Beləcə dayanmadan birnəfəsə beş səhifəlik xatirəsini diktə etdi, mətn kompüterdə yığıldıqdan sonra, beş

səhifəlik materialın ancaq bir uzun cümləsində iki dəfə işlənmiş bir sözü dəyişməli oldum, o da görünür Asya xanımın onun diqtəsini dayandırıb mənə nəfəs almağa, bir stəkan çay içməyə imkan verməsini təkid etdiyi vaxt olmuşdu.

Mən rəhmətlik Qulam Məmmədli ilə 90, Kamran Hüseynovla 93, İqrar Əliyevlə 80, Asiyət Yusifova və Sadıq Murtuzayevlə 85 yaşında və digər ahıl insanlarla söhbətlər etmiş və onların yaddaşları və məntiqi qarşısında heyranlığımı müxtəlif yazılarımda qeyd etmişəm. Ancaq bu adamların hamısının sağlamlıq durumu Kazım müəlliminkindən yaxşı olmaqla, gözləri görür və hər gün mütaliə və yazı-pozu ilə məşğul olanlar idi. Kazım müəllimsə beş il əvvəl gözlərinin nurunu itirməklə qulaqları da ağır eşidir. Və 87 yaşında 7-8 min işarəlik böyük bir mətni, xəbəri, müdtədası yerində olmaqla məntiqi ardıcıllıqla diqtə etməsi onun bu yaşda da peşəkarlığını qoruyub saxlaması, Allahın ona olan mərhəməti və qələminə yüksək məhəbbətindən irəli gəlir. Deyərdim ki, Kazım müəllim əsil qələmə bağlı ömür yaşamış, yaşayır və yaşayacaqdır.

Hacı Qüdrətlə, Kazım müəllimdən ayrılarkən ayağa durmaq bizi yola salmaq istədi. Və birdən: — «*Mən koram da*» deyərək: — Rus yazıçısı böyük mütəfəkkir Korolenkonun «Kor çalğıçı» povestini yada salıb nəsə demək istədi. Mən onun özünün gözlərinin nurunu itirməsindən danışacağı və qəhərlənəcəyindən ehtiyatlanıb səbirsizlik edərək bir növ canıyanılıq göstərmək kimi, sözünü kəsib başqa bir həqiqəti onun diqqətinə çatdırmaq və bu görmə

qabiliyyətini itirdiyinə görə dərd çəkməsin deyə – Kazım müəllim siz özünüzü kor adlandırmayın. Siz minlərlə digər gözlü insandan daha yaxşı görürsünüz. Bu bir həqiqətdir dedim. İçimdən gələni demişdim. Əslində gərək tələsməyəydim. Bəlkə bizim üçün çox əhəmiyyətli bir söz deyəcəkmiş imkan vermədim. Adətən böyüklər danışanda mən susub dinləməyi üstün tuturam. Bu dəfə səhvə yol verdim.

Rəhmətüllilaləmin dünyasını dəyişməzdən əvvəl kağız, qələm gətirilməsini istəmiş, Ömər ibn Xəttab isə Peyğəmbər s.ə. və səlləmin qızdırmalı olduğundan sayıqladığını iddia edərək kağız-qələm gətirməyə qoymamışdı ki, son anda nə isə arzuolunmaz bir söz deyər. **Bununla da bütün bəşəriyyət deyiləcək-yazılacaq çox mühüm bir vəsiyyətin-nəsihətin nədən ibarət olmasını bilməkdən məhrum oldu və bu gün də bunun peşimançılığı çəkilməklə narazılıq bildirilir. Ancaq çifayda gecdir.** Ona görə də dilimə deyirəm ki, sus! Böyüklər danışanda.

Müqəddəs kitabımız «**Qurani-Kərim**»də 102-ci kimi sıralanan «Əsr» surəsinin 2-ci ayəsində – «***İnsan özünün tələskənliyi ilə daim ziyan içindədir***» deyilir. Mən o gün səbirsizlik etdiyimə görə ziyan içində olmaqla Kazım müəllimin məhz o anda nə deyəcəyini bilmədim. Bununla belə ertəsi gün «Kor çalğıçı» əsərini tapıb çox diqqətlə oxudum.

Əsəri təhlil etmək fikrim yoxdur bu özündən böyük bir monoqrafiya olardı. Ancaq məhz Kazım müəllimin sözünə görə ədəbi nümunəni orijinaldan oxumağım dünya görüşümü xeyli zənginləşdirməklə

bir daha böyük ülvi-ilahi məhəbbətin necə xaruqələr yaratdığının şahidi oldum.

Əsərdə bir uşağın kor kimi dünyaya gəlişi, valideynlərinin və özünün iztirabları, uşaqlıq gənclik illəri, son dərəcə gözəl bir kubar qızın, ətrafında neçə-neçə sağlam, təhsilli daha geniş imkanlı gənclərin fırfıra kimi dolanmasına baxmayaraq, bu kor gəncə mərhəmət və məhəbbət göstərərək ona ərə getməsi, yüksək fədakarlığı, ona hər an hayan-dayaq durması, korun-Pyoturun təkrarolunmaz, ecazkar, fenomenal bir musiqiçi pianoçu – bəstəkar və virtuoz ifaçılığı ilə könülləri fəth etməsinə səbəb olmaqla onun rəngləri belə ayıra bilməsinə gətirib çıxarır.

Bu iki sevən gəncin izdivacından sağlam bir körpənin dünyaya gəlmə və görə bilməsini həkimin tədqiq etdiyi anlarda valideynlərin, xüsusilə kor – Pyotrun iztirab və üzüntülərinin kuliminasiya nöqtəsinə çatması və həkimin uşağın görməsini elan edərkən sevinc həddinin amplitudasının təsvirini çox incə və həssaslıqla, yüksək ustalıqla qələmə alan mütəfəkkirin nə qədər böyük dünyagörüşünə, tibbi, psixologiyanı, rəng duyumunu, ahəng-harmoniyanı xalq və klassik musiqini, insan qəlbinin keçirə biləcək ən incə duyğuları bilmək və bütün bunları öz qəhrəmanının həyatı ilə həmahəng şəkildə yazıya almaq qabiliyyətinə heyranlığını izhar etməyə bilmirsən. Sanki yazıçı özü bu hissləri yaşamışdı.

Bu da Kazım müəllimdən mənə bir qazanc oldu.

Yeri gəlmişkən korların da görmə duyumları, qabiliyyətləri barədə ümumi dostumuz və

həmkarımız, müəllimlərimdən biri hesab etdiyim Hacı Əhməd İsayevin bu yaxınlarda nəşr olunmuş İlisu sultanlığı ilə bağlı kitabında çox maraqlı bir məqama rast gəldim. Saxurlardan olan bir kor, parça rəngləyən boyaqçı ilə söhbətində deyir ki, gəlin hərəmiz bir parçanı boyayaq, görək hansı daha gözəl boyanıb. Çox maraqlıdır. Yuxarıda bir neçə dəfə qeyd etdiyim kimi Kazım müəllim bir çox gözlü adamlardan daha yaxşı görməsini iddia etməyimlə ədbəttə onun bəsirətlə görməsini diqqətə çatdırmağa çalışmış və fikrimcə o bu qəbildən olan qəlbi nurlu, xeyirli insanlardandır. Təbii ki, onun görə bildiyi vaxt və bu gün **«görə»** bilmədiyi çox böyük həqiqətlər mövcüddur. Bunları görməyi isə əlbəttə insana ancaq uca Allah qismət edir. Hər şeyi ancaq əlbəttə uca Allah görür və bilir. Korun parça boyamaq qabiliyyəti bir qədər müəmmalı görünsə də, kim bilir? Üzeyir Hacıbəyovdan oxuduqlarıma görə rənglərin də özünə görə hərarəti var. Bəlkə o kor adama bu hərarəti duymaq və bunları ayırmaq qabiliyyəti verilib, ya barmaqları ilə görürmüş. Hər şey Allahın əlindədir.

Kazım müəllim görmə, oxuma qabiliyyətini itirsə də, bununla barışıb ruhdan düşmür, daim ətrafındakılarla maraqlanır, Tolstoyun «Qafqaz əsirində»ki quyuya salınmış Kostılin kimi oturub gözləmir, Jilin kimi vəziyyətdən çıxış yolu axtarır, qaranlıqdan işığa çıxmağa cəhd edir və buna nail olur. Müşahidələrimə əsasən qətiyyətlə deyə bilərəm ki, təfəkkür və mühakimə qabiliyyətini hər gün cilalayır. Son aylarda ona verdiyim məqalələrimi və

redaktə etdiyim kitabların hamısını oxutdurub dinləməklə, onları mənimlə yaddaşı və təfəkkürü yerində olan yüksək səviyyəli mütəxəssis dərəcəsində müzakirə edir. Bu çox böyük məsələdir. Onun daim öyrənmək istəyi ilə bağlı müqəddəs **«Qurani-Kərim»** dən bir məsələni yada salmaq istərdim.

Müxtəlif din xadimlərindən eşitdiyimə görə Peyğəmbərin süd qardaşı Osman bir gün Qureyşdən olan Məkkə əyanlarını, islama dəvət edərkən onun qəbilə başçıları ilə danışığından xəbərsiz olan və adı bu məsələ ilə bağlı tarixə düşmüş kor Abdullah Ümm Məktum ona müraciət edərək: *«Allahın sənə öyrətdiyi şeyləri mənə də öyrət!»* demiş və bunu dəfələrlə təkrar etdiyinə görə, çox mərhəmətli olan Osmanın qaşları çatılır. Digər bir rəvayətə görə, müraciət üzündən heç vaxt mərhəmət və təbəssüm əskik olmayan Muhəmməd Salavatullahın özünə olmuşdur. Həmin anda kora iltifat göstərilmədiyindən, deyilənə görə bir qədər sonra **«Quran»**ın 80-ci **«Əbəsə»** surəsinin ilk ayələri nazil olur: ***qaşqabağını töküb üzünü çevirdi. Yanına korun gəlməsi üzündən.*** Burada müraciət üçüncü şəxsin təkinədir. Ona görə də Osmanın olması həqiqətə daha yaxındır. Ən doğrusunu hər sözün kimə ünvanlandığını ancaq Göndərənin Özü bilir.

***Nə bilirsən, bəlkə də o*** *(səndən islama dair soruşub öyrənəcəkləri ilə günahlardan**)** **təmizlənəcəkdir!***

***Yaxud öyüd dinləyəcək və bu öyüd ona fayda verəcəkdir.***

*(Var-dövlətinə güvənib sənin öyüd-nəsihətinə qulaq asmağa)* ***ehtiyac hiss etməyənə gəldikdə.***

*Sən üzünü ona tərəf çevirirsən.*

*Onun təmizlənməsindən sənə nə?*

*Yüyürə-yüyürə sənin yanına gələnə və Allahdan qorxan kimsəyə gəldikdə isə, sən ondan üz çevirirsən!*

*Xeyir! Bu bir nəsihətdir.*

*Kim istəsə ondan öyüd alar!»*

Gördüyümüz kimi kor da olsa belə, öyrənməyə səy edən insanın şərafəti Allahın yanında daha ucadır.

Kazım müəllim deyir ki, yadıma düşən vaxtlardan Allahım həmişə qəlbimdə olub və məni qoruyub. İki yaşım olanda yay aylarının birində Kürdəxanıdakı bağımızda olarkən rəhmətlik anam Məkbir xanım məni yuyundurmaq üçün həyətdə böyük qabda su qoyubmuş ki, qızsın. Mən də suya çox həvəskar olmuşam, qabdakı suyu görüb ona tərəf əyiləndə başı üstə düşmüşəm su qabına. Uşaq ağlımla ancaq onu edə bilmişəm ki, əllərimi qabın dibinə dayayıb çıxmağa cəhd edim. Bir də evdəkilər pəncərədən baxıb görürlər ki, su qabında iki uşaq ayağı tərpənir. Tez gəlib məni xilas etmişdilər. Bu Allahın işi idi. Deməli, mən hələ çox uzun illər yaşamalı idim.

Kazım müəllimin ömür yolu keşməkeşli və mənalı olmaqla jurnalistikaya gəlişi də çox maraqlıdır. «AzTAq»da direktor olan rəhmətlik Rza Quliyev onu ilk dəfə kassir vəzifəsinə işə qəbul etdikdən bir qədər sonra repartyorluğa keçir və o gündən Kazım Ələkbərovun qarşısında jurnalistika sahəsinə yaşıl işıq yanır. Bir qədər sonra «Kommunist» qəzetinə

redaktor təyin olunan Rza Quliyev onu «Kommunist»də işləməyə dəvət edir. «AzTAq»ın direktoru Qurvic bir neçə dəfə onun ərizəsini cırır. Sonra isə yerinə adam hazırlamaq şərtilə getməsinə icazə verir. Beləliklə, Kazım müəllim «Kommunist» də işləməyə başlayır. 1951-ci ildə seçkilərlə bağlı «Kommunist» qəzetində 18 yaşına satmış ilk dəfə səsverməyə gələn seçicilərin şəklini vermək üçün iki dəfə Bibiheybətə piyada gedir, gecə saat ikiyə kimi seçicilərin evlərində olub, bu adamların səhəri seçkiyə necə gəlmələrini, harada toplaşmalarını müəyyən etməklə, şəkillərinin qəzet üçün çəkilməsini təşkil edir və buna görə ikiqat qanorarla mükafatlandırılır.

Yeri gəlmişkən qeyd edim ki, 1951-ci il Kazım müəllim üçün çox uğurlu olmuşdur. Belə ki, 1951-ci ildə hələ «Kommunist» qəzetində yenicə işə başladığı bir vaxtda, o dövr üçün təntənəli hadisə hesab olunan və bu günə kimi respublikanın ən böyük İdman Sağlamlıq Kompleksi olan «Neftçi» stadionunun istifadəyə verilməsi ilə bağlı SSRİ dövlətinin başçısı Stalinə ünvanlanan müraciətin mətnini hazırlamaq ona etibar olunur. Vaxt da çox məhdud olur. Respublikada və ümumiyyətlə İttifaqda baş verən bütün ictimai-kütləvi hadisələrdən məlumatlı olan Kazım Ələkbərov çox qısa bir müddətdə müraciətin mətnini hazırlayıb redaktorla razılaşdırdıqdan sonra Mərkəzi Komitəyə çatdırır. Mətnin surətini isə özündə saxlayır. O günün axşamı stadionun açılışında iştirak edən gənc jurnalist 50 min müxtəlif peşə sahibləri olan paytaxt sakinləri, partiya-dövlət ictimai xadimlərin, ziyalıların və Azərbaycanın

mütləq hakimi hesab edilən Mircəfər Bağırovun şəxsən iştirak etdiyi əzəmətli və təntənəli tədbirdə böyük rəhbərə ünvanlanan müraciətin mətninin oxunmasını həyəcanla, ürək çırpıntıları ilə gözləyir. Diktor böyük pafosla müraciətin mətnini səsləndirərkən, Kazım Ələkbərov bütün diqqətini toplayaraq əlində hazır saxladığı mətnin surətini izləyir. Azərbaycan KP MK-da diqqətlə yoxlanılmış mətnə bir vergül də belə əlavə edilməmiş, hər söz olduğu kimi saxlanılmışdı. Bu «qələmlə yazılmış şərəfli ömür yolu»nda bu gün əməkdar jurnalist, «Qızıl qələm» və bir sıra digər jurnalist mükafatlarının, «İki cəbhənin qəhrəmanı» Kazım Ələkbərovun Böyük Vətən müharibəsində göstərdiyi şücaətlərdən sonra 27 yaşında qələmlə, təfəkkürü, məntiqi və yazısı ilə qazandığı ən böyük qələbəsi idi…

«AzTAq»da işlədiyi dövrlərdə Kazım müəllimi «informasiya kralı» adlandırırmışlar. Doğrusu, bu məsələ ilə bağlı xatirə mənim üçün də çox maraqlı idi. Necə olub ki, Kazım müəllim bu ada layiq görülüb və buna nail olub. Mən də ayrı-ayrı vaxtlarda müxtəlif zavod və fabriklərdən, tikinti meydançalarından qəzet, radio və televiziya üçün xəbərlər hazırlamışam. Ancaq Kazım müəllimin metodu heç vaxt ağlıma gəlməyib. Kazım müəllim hər hansı bir müəssisəyə gedib lazım olan informasiyanı əldə etdikdən sonra, kitabxanaya, həmkarlar təşkilatına gedir, partiya təşkilatının işi ilə də maraqlanır, onların iş planlarını əldə edir, sonra mütəmadi olaraq bu təşkilatlarla telefonla əlaqə saxlamaqla irəlicədən hazırladığı

informasiyalara operativ məlumatları əlavə edərək istehsalata verirmiş. Ona görə də həmişə əlinin altında hazır material olurmuş. Tənqidi materiallar hazırladığı vaxtlarda yazıda qeyd etdiyindən əlavə tutarlı ehtiyat faktlar saxlayırmış.

Kazım müəllim heç vaxt qələminə və ədalətə xəyanət etməmiş qəzetdə işlədiyi dövrdə həmişə prinsipial mövqedən çıxış edərək haqqı müdafiə etmiş, sifarişlə qərəzli material yazmamış, ədalət mövqeyindən çıxış etmişdir.

Rayonların birində onun tanımadığı bir baş həkimdən qərəzli material yazması müqabilində ona təzə maşının açarı təklif olunanda bundan qətiyyətlə imtina edir. Bir qədər sonra həmin həkimlə bağlı tənqidi yazı qəzetdə başqa imza ilə çap olunur. Əlbəttə bu Kazım müəllimə çox pis təsir edir. O, öz etirazını və bu işin ədalətli olmadığını redaktora deyəndə, redaktor özünü bilməməzliyə qoyur. Deyirlər haqq nazilər, ancaq üzülməz. Məsələ yüksək səviyyədə araşdırılır və iftiraçı müxbir redaksiyadan uzaqlaşdırılır.

Elmi Tədqiqat Kimya İnstitutundan hazırladığı tənqidi yazıya görə Akademiyanın prezidenti ona zəng vurduqda Kazım müəllim öz arqumenterini deyir, hörmətli akademik razılaşmalı olur.

Diqqətinizə çatdırım ki, yeri gəldikcə Kazım müəllim prinsipallığı ilə bərabər güzəştə getməyi də bacarıb. Ondan dost kimi xahiş etdikdə və tənqidi yazısının yaxşı insanlardan kiminsə mənafeyinə mənfi təsir edəcəyini və məsələnin başqa yolla

həllinin, - qüsurun aradan qaldırılması ilə mümkünlüyünü bildirdikdə razılaşmış və məsələnin bu cür həlli onu qane etmişdir.

«Bakı» və «Kommunist» qəzetlərində işlədiyi dövrlərdə demək olar ki, SSRİ-nin bütün mərkəzi şəhərləri və əksər kurortlarında, habelə dünyanın bir sıra ölkələrində – İtaliya, Macarıstan, Çexoslovakiya, Malta, Fransa, Misir və digər ölkələrdə olmuş, harada olmasından asılı olmayaraq həmişə doğma respublikamızın adını uca tutmaqla,bu yerlərdə yaşayan və işləyən azərbaycanlı mütəxəssislər və Azərbacansevərlərlə görüşlər təşkil edərək, milli mədəniyyətimizi, şanlı tarixi keçmişimizi təbliğ etməklə Azərbaycanı şərəflə təmsil etmişdir.

Xatirələrində Moskvada, Sankt-Peterburq və Tbilisidə olan jurnalist həmkarlarından ürək dolusu razılıqla söhbət açır.

Kazım müəllim həmişə öz nəfsinə sahib adam olmuşdur. Cəbhədə olduğu vaxtlarda Varşava sərgüzəşt-ləri ilə bağlı yazdığı xatirəsində, burada gənc və yaraşıqlı Yanka adlı bir qızla tanışlığından, onunla rəqsə getməsi, dəfələrlə evlərində olmasından söhbət açılır. Daha yaxın münasibətlər üçün şərait yaranmasına baxmayaraq bundan yayınır. O vaxt Avropa ölkələrində vuruşan Sovet zabitlərinə bununla əlaqədar ciddi xəbərdarlıq edilmiş, xəstəliyə tutula biləcəkləri onlara deyilmiş, habelə nizamnaməyə görə də bunu etmək olmazdı. Şəriətimiz də bunu caiz bilmir. Belə şərait və imkanların dəfələrlə yaranmasına və Kazım Ələkbərovun gənc zabit olmasına baxmayaraq həmişə nəfsinə qalib gələrək belə görüşlərdən

yayına bilmiş, Allahın yanında ağ üzlə Vətənə qayıtmışdır. Şair demişkən:

*Hər kəs ki, Yusif kimi həya eyləsə*
*Züleyxa kimi rüsvayi-cahan olmaz.*

Nəfsinə sahib olmaq hər adama nəsib olmur. Hər kəsə nəsib olsa, Rəsuli Əkrəmin hədisi şərifində deyildiyi kimi – «***hər kəs ki, nəfsinə sahib olub, iki yerini qoruya bilsə cənnətin qapıları onun üzünə bağlanmaz***».

Yəni cənnətin ona qismət olacağına ümid edə bilər.

Zabit Kazım Ələkbərovun vasitəsilə Varşavalı qızlarla tanış olan erməni Avetis isə təkbaşına bu evə gedərək qızlarla yaxınlıq etmək cəhdinə görə çox bərk döyülmüş başı-gözü əzilmiş halda, pis vəziyyətdə hərbi hissəyə qayıtmış, necə deyərlər həm qızların, həm də komandanlıq və yoldaşları qarşısında rüsvay olmuşdu.

Kazım müəllimin yaradıcılığında erməni məsələsi onun özündən asılı olmayaraq qeyri-iradi, bir dəfə istisna olmaqla, yəni yaxşıya yaxşı deməklə qalan hallarda həmişə mənfi çalarlarla diqqəti cəlb edir. Bəzi hallarda özümüzə görə təəssüf hissi keçirməli oluruq.

Sən demə, bizim başbilənlərimiz Azərbaycanın xalq yazıçısı adına birinci olaraq məhz erməni Aleksandr Şirvanzadəni təqdim etmiş və ilk dəfə erməni bu adla şərəfləndirmişlər. Əhsən belə baş bilənlərimizə!

Böyük Vətən müharibəsi dövrü xatirələri, səfər təəssüratlarında ermənilərin iç üzünü göstərən maraqlı faktlara rast gəlirik. Bolqarıstanda səfərdə olarkən mehmanxanada xidmətçi, mağazada satıcı, «Qızıl qum» sanatoriyasında rast gəldiyi kişini doğma bilib — siz türksünüzmü? soruşduqda hər üçü — «***xeyr valideynlərimizi türklər qırdıqdan sonra bu ölkədə sığınacaq tapmışıq»*** deyirlər. Hər üçünün tutuquşu kimi eyni sözü təkrarlamasından məlum olur ki, bunların hamısı eyni mərkəzdən təlimatlandırılmışlar. Hamısı da gəlirli işdə böyük zəhmət tələb olunmayan xidmət sahələrində çalışırlar.

Bir yazıda Nabrana istirahətə gəlmiş ayaqqabı fabrikinin əməkçilərini buraya gətirmiş erməni millətindən olan yerli komitənin sədrinin sərxoş olub, camaatın başına oyun açmasından danışılır. O vaxtlar onlara belə şərait yaradılmışdı. Ayaqqabı istehsalı tez başa gələn və gəlirli sahə olduğundan burada çalışanların da çoxu ermənilər idi. Həmkarlar təşkilatında çalışmaq, ortada yeyib qıraqda gəzmək də onların «xobbisi» idi. Bunungün əldən ayaqdan gedirdilər. Bakıda uzun illər mənzil bölgüsü, pasport qeydiyyat şöbələri və digər bu kimi sahələr erməni millətindən olanların **«inhisarında»** idi.

«AzTAq»da işləyərkən Hamlet Dallakyan adlı birisinin onların etibarını qazandıqdan sonra, imzasız məktubla divar qəzetində dostluq etdiyi adamlara böhtan ataraq, arxadan zərbə vurmasından bəhs olunur.

1969-cu ildə Partiya kurslarında təhsil aldığı dövrdə 16-17 nəfər erməninin heç kəsə qarışmadan

arxada oturub bərkdən danışaraq gülüşmələri, özlərini həyasız aparmaları, akademik Püstəxanım Əzizbəyovanın Azərbaycanda Demokratik Respublikanın qurulması dövründə daşnak və menşeviklər barədəki həqiqətlərdən danışarkən, kursa gəlmiş Ermənistan KP MK-da şöbə müdiri olan təkqol ermənininin həyasızcasına – **«siz müsavatçılardan danışsanız yaxşı olar»** replikasına, Akademikin tutarlı cavabları ilə ermənini, daşnak-kommunistini susdurduğu andan səsləri daha çıxmır. Dəhlizdə sakit dayanır və kursların nə vaxt bitəcəyini gözləyirmişlər.

Jurnalistin «Erməni təbiəti və biz» yazısında oxuyuruq. «Gənc yaşlarımda şəhərin mərkəzi hissəsindəki böyük binaların birində yaşayırdım. Qonşularımızın 80 faizi ermənilər olduğundan istirahət saatlarımda mənə dinclik verməzdilər. Abram Edikdən, Sarkis Racikdən, Tolik Abramdan qeybət qırırdılar – Kazım müəllim bilirsən bu Edik nə zibildir...» Başqaları isə onlar haqqında bir söz deyəndə müdafiəyə qalxırmışlar. Bu erməni xislətidir.

Qonşulardan söhbət düşmüşkən, Kazım müəllimi narahat edən qonşuluq münasibətləri haqqındakı fikirlərini diqqətinizə çatdırmaq istərdim. Deyir ki, — «*əvvəlki vaxtlarda qonşular, nəinki bir binada, hətta yaxın binalarda yaşayanlar bir-birini tanıyar, salamlaşardılar. Böyük mehribanlıq vardı. Eyni binada yaşayanlar yaxın qohumlar qədər doğma, əziz və mehriban olmaqla bir-birinin evinə gediş-gəliş var idi. İndi isə nəinki bina ya blok, hətta üzbəüz yaşayan qonşular bir-birini tanımır. Hərə öz evinə girib qapını*

*bağlayır. Qonşuda qiyamət qopsa belə maraqlanmaz və bundan xəbəri olmaz. Bu heç də yaxşı hal deyil.»*

Burada bir haşiyə çıxmaq istərdim. Mənim doğulduğum kənddə 1970-ci ilə qədər qonşu evlər arasında çəpər yox idi. Qapılarımızda da qıfıl olmazdı. Həyətlərdə qoyulan təndirlər yol kənarında olar, gəlinlər, nənələr təndirdən üstü qızarmış, isti ətirli çörəkləri çıxaranda yoldan keçənlərə az qala yalvarardılar ki, bir tikə götürsünlər, kimsə götürməyəndə bunu özlərinə dərd edərdilər. Çörəyin birini adətən yaxındakı qonşuya pay verərdilər ki, birdən kimsə umsunar. Sağmalı olmayana süd, qatıq, nehrə yağı, şor və ayran pay verərdilər. Deyərdilər ki, qonşuya verilən payın əvəzini Allah on qat ödəyər. Pay verən əvəzinə görə deyil, qonşuluğa görə verərdi. Bu bir adət idi ki, min illər boyu insanların qəlbində yer eləmiş, qanına hopmuş, iliklərinə işləmişdi. Pay göndərənin üzündə bir nur çırağı şəfəq saçardı. İnsanlar bundan rahatlıq tapardılar. Beləydi qonşuluq. Lap böyük Şeyx Nizamidə olduğu kimi

*Bizdə bərabərdir hamının varı,*
*Bərabər bölərik bütün malları.*
*Bizdə artıq deyil heç kəsdən heç kəs,*
*Nə zəncir nə qıfıl görər qapılar.*

Bizim gözəl adət-ənənələrimiz var. Qonşular bir-biri ilə doğma adamlar kimi mehriban olmaqla biri digərinin qayğısına qalıb dərdinə şərik olmalıdır.

Peyğəmbər Rəsulullah qonşularla mehriban münasibətlərdə olmaqla bunu ümmətinə də tövsiyə etmişdir.

Kazım müəllim yeri düşdükcə ermənininin nümunə götürüləsi işlərindən də söhbət açır.

1950-ci ildə Bakıda şahmat yarışı keçirilirmiş. Dövlət Universitetində yarış iştirakçıları ilə baş tutan görüşdə qrossmeyster Averbax maraqlı bir epizod danışır: – «*T.Petrosyanla Cənubi Amerikaya uçarkən təyyarə yanacaq doldurmaq üçün bir saatlığa yolda dayandı…*» Gecəyarı olur. Onlar təyyarədən çıxanda əllərində yanan məşəllər - çıraqlar tutmuş və «Viva Petrosyan» bağıra-bağıra yüzlərlə adamın onlara tərəf gəldiyini görürlər. Sən demə 400 km aralıda yerləşən bir kənddə yaşayan ermənilər hələ dünya çempionu olmamış Petrosyanın buradan keçəcəyini bilmiş və bütün kənd, həmyerlilərini ayaqüstü görmək üçün payi-piyada neçə gün yol gəlməklə onu dəstəkləmiş, qələbəyə qalib gəlməyə ruhlandırmışdılar.

Bu da ermənilərin öz millətindən olanlara münasibəti. Bu vətənpərvərlik olmaqla təqdirəlayiqdir. Biz ermənilərin məhz belə vətənpərvərliyindən nümunə götürməliyik.

Harada olmasından asılı olmayaraq ermənilər bir-birini müdafiə edir, bir **hayes** deməklə can bir qəlb olurlar. Erməni və yəhudilər hansı ölkəyə və şəhərə gedirlərsə burada qısa müddətdə cəmiyyətlərinin köməyi ilə iş və ev sahibi olurlar. Dünyanın beşdə bir hissəsinin təşkil edən ölkələrin baş şəhərlərində olmuş, nə Bakımızda, nə də bu

şəhərlərdə erməni ya İsrail övladlarının kirayədə yaşadıqlarını görməmişəm. Sovetlər dövründə uzun illər Bakıda mənzil bölgüsü erməni və yəhudilərin əlində olmuşdur. Bizlərinsə nə qədəri kirayədə doğulur, burada böyüyür, evlənir-ərə gedir, bir çoxları elə kirayə yaşadıqları evdə də dünyasını dəyişirlər. **Allah bizlərə rəhm etsin!** Dünyada yaşayan bütün ermənilər hər ay öz qazanclarının müəyyən faizini kilsəyə ödəyirlər. Kilsəyə pul ödəməyənlər erməni cəmiyyəti tərəfindən qəbul edilmir bunlar yeri düşdükcə çox ciddi cəzalandırılır. Sumqayıt hadisələri zamanı evləri yandırılan və ermənilərin irəlicədən planlaşdırdıqları kimi zorakılıq və təcavüzə məruz qalan erməni ailələri məhz kilsəyə dini vergi ödəməyənlər olmuşdu.

Yeri gəlmişkən bir haşiyəyə çıxım, Ərəb ölkələrindən birində olarkən, yerli adamlardan biri bizi çox bahalı bir mehmanxanaya qonaq aparmışdı. Biz burada öz dilimizdə danışaraq, Azərbaycanlı olmasına əmin olduğumuz adamlara təbəssüm etməklə doğmalığımızı bildirdiyimiz halda onların bir çoxunun üzlərində heç bir reaksiya hiss etmirdik. Bunlar yeni varlananlar idi. Onlar sanki bizi görmürdülər və ya biz onların gözünə görünmürdük.

Ən gözədəyən yerdə bir stolun ətrafında ermənilər əyləşib söhbət edirdilər. Onların yanından ötəndə başçıları ayağa durub, bərkdən ermənicə bizə Salam verdi. Sadəcə bizim erməni ola biləcəyimizi ehtimal etdiklərindən erməniliyini bildirməklə bizi öz stoluna dəvət etməyə çalışdığı halda, özümüzkülərin bir çoxu özlərini görməzliyə qoyur, ya da üzlərini çevirirdilər.

Bəzilərimiz ildə bir dəfə məscidə gedib, xüms-zəkat bir yana qalsın, sadəcə bir manat ianə vermədiyimiz halda dini rəhbərlərimiz və bütün din xadimlərimizin nəzir qutularını talan etdiklərindən pafosla danışır. Bir çox müxalifət qəzetlərimiz isə hansısa xarici missioner təşkilatların sifarişi ilə müqəddəslərimizə və dini rəhbərlərimizə qarşı hədyan dolu yazılar dərc etməklə xalqın birliyinin pozulmasına və inanclarımızı təhqir etməklə kimlərin dəyirmanına su axıtdıqları, hansı əqidəyə xidmət etmələri bilinmir.

Neçə imkanlı adam tanıyıram ki, dilənçiyə və məscidə bir manat vermədiyi halda nəzir qutusunun gəlirindən danışır. Belə adamların cavabını yerində verirəm. Ancaq cifayda? Müqəddəs kitabımız **«Qurani-Kərim»**də qeybət qırmaq böyük günah sayılır.

Mən yuxarıda Kazım müəllimin dostluğundan söhbət açmışdım. Sonda onunla dostluq münasibətində olmuş bir neçə tanınmış şəxslərin adlarını çəkməklə ruhlarına işıq salmaq istərdim. Kazım müəllim, rəhmətlik Nəbi Xəzri, Azad Mizrəcanzadə, Rəşid Mahmudov, Adil Quliyev, polkovnik Məmmədhüseyn Muradov, hazırda sağ olan polkovnik Kamal Xalıqov, Əlövsət İsmayılov, Aleksey Mikişin və digərləri ilə dostluq münasibətində olmuş, Nazim Hikmət ilə görüşmüş, əfsanəvi qəhrəman Mehdi Hüseynzadə ona rəssamlıqdan dərs demişdir.

Kazım müəllimin əmək fəaliyyətinin sonuncu on iki ili Bakı şəhər İcra hakimiyyətində keçmişdir. Onun buradakı vəzifəsi, məktubları redaktə etmək

olsa da o təkcə bu işlə kifayətlənməmiş şəhərimizin küçələrinə ad verilməsi ilə bağlı da çıxışlar etmişdir. Yazıların birində oxuyuruq, böyük Sabirin adına olan küçənin uzunluğu 100 metrdir və s. və i.a. Bunlar ürək ağrıdan məsələdir. Nə qədər bir neçə kilometr olub yüzlərlə binanın yerləşdiyi küçənin adı əksəriyyətinin tanımadığı bir şəxsin adını daşıyır. Dünənə kimi isə şəhəri əhatəyə alan ən böyük küçələrimiz bu millətə qarşı genosid edənlərin adını daşıyırdı. Bundan başqa Kazım müəllimin burada müstəqillik qazanmış ölkəmizin məmurlarına doğma Azərbaycan dilini öyrətmək kimi şərəfli bir pay da düşmüşdür.

Kazım müəllimin birinci kitabı nəşr olunanda, müəllif, annotasiyadan yuxarıda Şəfəq Cəlilova soyadlı bir xanıma minnətdarlıq etmişdi. Bu xanımı onun 75 illiyində görsəm də xatırlamırdım. Qəhrəmanımın 85 illiyində üzbəüz oturmuşduq. Adı kimi üzündə də bir şəfəq vardı bu xanımın. Sonra portretini gördüm və qismət oldu iş yerində onunla görüşdük. Mən bundan əvvəl Kazım müəllimin bu xanım haqda neçə dəfə böyük məhəbbətlə, şövqlə, razılıqla danışdığının şahidi olmuşdum. Məhz Kazım müəllimin ona olan məhəbbəti idi məni Şəfəq xanımla görüşdürən.

Şəfəq xanım dedi ki, 90-cı illərin ilk günlərindən bizə işə gələn, saçları düm ağ olan bu adamla söhbət etmək, onun dünya – həyat hadisələri haqqında söhbətlərini, mülahizələrini dinləmək adama qol-qanad verirdi. Əfsus ki, iş saatlarında onunla 10-15 dəqiqədən artıq söhbət etmək alınmırdı. Onun həyat lövhələri adlı xatirələrini həvəslə oxuyurdum. Arabir şeir də yazır və bəzi şeirlərini mənə verərdi. Özünü

şair adlandırmaz, bu da şahmat kimi bir xobbimdir deyərdi.

İndi o vaxtdan illər keçib. O, müdrik ağsaqqalın mənə verdiyi şeirləri hər dəfə oxuduqda nurlu, mərhəmətli, işıqlı siması gözlərim önündə canlanır.

Şəfəq xanımın ürəyi dolu idi. Allah ondan razı olsun! Anasının ona verdiyi süd halal olsun!

O, bu gün də dostumuzu unutmur, tez-tez zəng vurub halını soruşmaqla və imkanı düşdükcə Kazım müəllimi ziyarət etməklə qəlbini sevindirir. İnsan yaşlaşdıqca xoş bir səsin sorağında olur.

Kazım müəllimin Şəfəq xanıma həsr etdiyi və ona verdiyi şeirlərin bir neçəsinin surəti qarşımdadır. Onlardan bir beyti burada vermək yerinə düşər.

*Gözəllik içində yaşasın insan,*
*Hər günü xoş keçsin, firavan olsun.*
*İllər dolandıqca, keçdikcə zaman,*
*Həyatı gül-çiçək, sevinclə dolsun.*

Demək olar ki, onun bütün şer yaradıcılığı bu cür ladlar üzərində qurulmuşdur. Ancaq xoş söz-xoş arzu. Kazım müəllimin şəxsiyyəti həyat və yaradıcılığı ilə bağlı, başladığım və qismət olsa qayıdacağım yazıya son verməzdən əvvəl, onu tanıyan, hörmət bəsləyən və nə vaxtsa ona təbrik açıqçası ya məktub göndərmiş insanlardan qalan kiçik xatirələrə diqqət və qayğısı məni heyrətdə qoydu. Çap olunmuş yarımçıq kitabçapımın ilk nüsxəsini ona təqdim etdikdən sonra, arxivindən mənə bir qovluq vermişdi. Bu qovluqla tanış olduqda

Saxalindən tutmuş Şərqi və Qərbi Avropanın bir sıra ölkələrindən 1946-cı ildən bu yana müxtəlif din, millət və xalqların nümayəndələri olan yüksək səviyyəli ziyalıların duyğularını saf ürək çırpıntılarını, xoş arzularını öz əl xətləri ilə, yüzdən çox al-əlvan açıqçalarda ünvanına və bizlərə çatdıran xoş sözlərin hənirtisini duydum. Çoxdan dünyasını dəyişmiş, üzlərini görmədiyim bu xoşxislət insanların ümumiləşmiş simaları gözlərim önündə canlandı. Onlara rəhmət diləməklə Kazım müəllimin səliqəsinə və bu insanlara bəslədiyi hörmət və diqqətə görə min sağ ol dedim. Altmış beş il bundan əvvəl göndərilmiş açıqcaları, müxtəlif ölkə və şəhərlərdə ona verilmiş vizit vərəqələrini hətta Koqnovitskiyə Respublika Ali Sovetinin Rəyasət Heyəti tərəfindən verilmiş «Fəxri fərman»ı belə qoruyub saxlamışdır Kazım müəllim. Kitabxanasında səliqə ilə düzülən kitabların müəllif-lərinə görə hər birinin hansı cərgədə olmasını dəqiq-liklə bildiyini desəm səhv etmərəm. Kazım müəllimin keçmişlərə, dostlarına, onların göndərdikləri məktub və açıqcalara göstərdiyi qayğı və diqqəti onları qoruyub saxlaması, təqdirəlayiq olmaqla bizlərə örnəkdir.

Kazım müəllim digərlərindən fərqlənən üstün adamlardandır, belə ki, şeir yazmaq qabiliyyəti hər adama nəsib olmur. Kazım müəllim şair olmasa da qəlboxşayan şeirləri var. Deyilənə görə, şairlərin sırası peyğəmbərlərdən sonra gəlir. Kazım müəllimin həm də rəng duyumu, şəkil çəkmək qabiliyyəti var. Allah elmi və istedadı istədiyi adama bəxş edir.

Uca Allah Kazım müəllimi seçib bu vaxta qədər nəzəri üstündə olmaqla onun özünə – təkcə özünə deyil, qardaşları və bacısına habelə övladlarına hər cür istedad verib. Belə ki, bu nəsildən olanların hər biri söz qoşmağı, şəkil çəkməyi bacarırlar. Böyük qardaşı Hüseyn istedadlı rəssam və memar, digər qardaşı Tələt Ələkbərov istedadlı yazıçı jurnalist, tərcüməçi, bacısı Əzizə memar. Xaliq bu nəsildən heç nəyi əsirgəməyib.

Kazım müəllimin qızı Sevinc jurnalist, Azərbaycan televisiyasında işləyən Azər adlı oğlu rejissor, yaradıcı bir ziyalıdır. Litseyi müvəffəqiyyətlə bitirmiş oğul nəvəsi Erkin həm də gözəl rəssamdır. Babası və atasından xəbərsiz Avropada keçirilən gənc rəssamların sərgisinə göndərdiyi rəsmə görə II mükafatla təltif olunub. Bu yaxınlarda isə Rəssamlıq Akademiyasına qəbul olmaqla babasına və doğmalarına böyük sevinc bəxş etmişdir. Böyük nəvəsi Fərəh Rəssamlıq Akademiyasının sənətşünaslıq fakültəsində oxumaqla gözəl əl qabiliyyətinə malikdir. Göründüyü kimi, Allah hər ikisinə – nəslin davamçılarına gözəl istedad bəxş edib.

***Ot kökü üstə bitər deyiblər. Nəsil davam edir.***

***Var olsunlar deyirəm!***

# SÖZARDI
## Üç üzük

***Bismillahir-rəhmanir-rəhim!***

***İki həftədən çox idi ki, Kazım müəllimgilə getmirdim. Yenicə daxil olmuş mübarək Ramazan ayının üçüncü həftəsinin ən gözəl və uğurlu günü olan Cümə günü onlara getdim. Sol əlimin barmaqlarını əlinin içində saxlayaraq: – Asya xanım o mənim əmanətimi gətir dedi: Asya xanım pəncərənin önündə qoyulmuş mücrüdən kişi üçün olan üstü rantlı bir qızıl üzük götürüb ona uzatdı. Kazım müəllim üzüyü çeçələ barmağıma taxıb: – «1954-cü ildə aldığım ilk üzük, jurnalistikada və həyatda uğurlarımın başlanğıc talismanı və mənim üçün dəyəri maddi nemətlərlə ölcüyə gəlməyən ən qiymətli və ən əziz əşyamdır. Qoy bu qızıl üzük məndən yadigar olmaqla yaradıcılığında və bütün fəaliyyətində sənə uğurlar gətirsin!...»***

## Birinci üzük
## Firuzə qaşlı - «Qardaşlıq üzüyü»

Müqəddəs Həcc ziyarətində olduğum günün səhəri, Məscidül-Həramda Kəbə evini təvaf edərkən təsadüf elə gətirdi ki, zəvvar yoldaşlarımdan ayrı düşdüm. Vacibi təvaf, səy və İbrahim məqamında, Zəmzəm quyusu önündə namaz qıldıqdan sonra burada ibadətlə bağlı müxtəlif ləvazimatların səccadə, araqçın, təsbeh, gümüş üzük və digər şeylərin satıldığı dükana girdim. Məqsədim buradan doğmalara hədiyyə etmək üçün firuzə qaşlı üzük almaq idi. İslam şəriətinə görə qızıl əşyaların insandan özündənrazılıq hissləri yaratdığından qadınlar istisna olmaqla iman əhli olan kişilər qızıl üzük taxmaqdan yayınmışlar. Rəsuli-Əkrəm s.ə.və s. və Həzrət Əli ə.s-mın qızıl zinət əşyası olması haqqında eşitməmişəm. Tanıdığım və illər boyu

müxtəlif ölkələrdə yaxından gördüyüm ən yüksək ranqlı müsəlman din xadimlərinin qızıl üzük taxmalarını görməmişəm.

Almaq istədiyim üzüklərin məhz Kəbə evinin yaxınlığında satılmasının da mənim üçün müəyyən əhəmiyyəti var idi. Təvaflardan sonra son dərəcə həyəcanlı və yüksək əhval-ruhiyyədə olduğumdan, həm də o vaxt qiyməti metal və daşlardan o qədər də baş çıxartmadığımdan elə birinci vitrində olan firuzə qaşlı üzüklər diqqətimi cəlb etdi. Ərəb dilini bilmədiyimdən elə danışığımız dildə bunlar gümüşdürmü? – soruşdum. Satıcı sanki məni başa düşürmüş kimi - «qumuş-qumuş» təkrarladı. Müxtəlif ölçülərdə on ədəd üzük aldım.

Məqsədim təkrarən Kəbə evini təvaf edərək, Həcərül-Əsvəd daşını öpməyə çalışmaq və Adəm atamızın Cənnətdən yer üzünə enərkən özü ilə gətirib, burada Rəbbinin əmrilə Allaha ibadət üçün tikdiyi «**Ev**»in və ümumiyyətlə yer üzündə bu günə qədər ölçüləri və nizamı dəyişməmiş və qiyamətə qədər qalacaq, qapısı olan «**ilk ev**»in divarının küncünə **müqəddəs əlamət** kimi bərkitdiyi «**Cənnət daşı**»nı – «**Həcərül-Əsvədi**» öpərkən aldığım üzükləri bu **daş**a toxundurmaqla onlarda müsbət enerji yaranması istəyi idi ki, üzükləri hədiyyə edəcəyim insanlar onun qaşını öpməklə qəlblərində Həcərül-Əvsəd daşını öpmək arzusu yaranmış olsun.

Allah elə qismət elədi ki, arzum yerinə yetdi, Həcərül-Əvsəd daşını öpməklə, aldığım üzüklərin qaşını **ona** toxundura bildim. Sevincimin həddi yox idi.

Bu əhvali-ruhiyyə ilə Kəbə evindən ayrılarkən zəvvar yoldaşlarım Hacı Qüdrət Piriyev, Hacı Əhməd İsayev, Hacı Rövşən Xəlilov, Hacı Anar İskəndərov və rəhmətlik Hacı Ramazan İsmayılov bir də Hacı Abdulla Ələsgərovla qarşılaşdım. Dostlarım məndəki dəyişiklikləri duyub maraqlandıqda, Həcərül-Əvsəd daşını öpməyin mənə qismət olduğunu və üzükləri onlara göstərərək - bu üzükləri də Həcərül-Əvsədə sürtmüşəm deyərkən, hərəsi üzüklərdən birini istədi. Dostlarım barmaqlarının ölçüsünə görə üzük seçdilər.

Ertəsi günü biofizik professor Hacı Rövşən qaldığımız Əldul-Əziz mehmanxanasının önündə mənə bir tərəfində Kəbə evi, digər tərəfində Məscidül-Nəbəviyyənin günbəzi həkk olunmuş, firuzə qaşlı bir üzük uzadaraq: — «*al tax barmağına təmiz gümüşdür, qoy bu bizim* ***«qardaşlıq üzüyümüz»*** *olsun*» — dedi.

Həcc ziyarəti ərəfəsində tanış olduğum Hacı Rövşənlə dəfələrlə birgə Bakıda Təzə Pirdə, Məkkədə Məscidül-Həram, Ərəfatda, Minada namaz qılmış və qardaşlıq əhdi bağlamışdıq. Əslində, Həcc ziyarətində olanlar müsəlman qardaşdırlar. Üzüyü barmağıma taxdıqda rahatlıq duyub, zəvvar qardaşıma təşəkkür etdim. O üzüyü Həcərül-Əsvədə 2 dəfə toxundurmaq mənə nəsib olmuşdu. Bu mənə hədiyyə olunan **ilk üzük idi**. Həcc ziyarətinə qədər heç vaxt üzük taxmamış – taxa bilməmişdim. Hər-hansı bir üzüyü barmağıma taxan kimi ürəyim bərk sıxılırdı. Bu üzüyü isə barmağıma taxan kimi rahatlıq tapdım. Düz on il müəyyən istisnalar olmaqla üzüyü barmağımdan çıxarmadım. Bu hədiyyənin dəyəri mənim üçün çox böyük idi, yerinə brilyant qaşlısı təklif olunsaydı, sössüz ki, dəyişməzdim. Hərdən özümdən soruşurdum ki,

təkid etsələr əvəzində nə istərsən? Daxildən bir səs deyirdi ki, ailənin bir aylıq və Həcc ziyarətinin xərclərinin ödənilməsi müqabilində və təkrar ziyarətdən qayıtdıqdan sonra verə bilərsən, başqa bir səssə: – **«yox vermək olmaz bu qardaşlıq üzüyüdür»** – deyirdi...

## İkinci üzük

## Əqiq üzük – «Qalibiyyət üzüyü»

Həcc ziyarətindən qayıtdıqdan sonra növbəti dəfə anamı, doğmalarımı, ata-babalarımın və nənələrimin — əzizlərin qəbirlərini ziyarət etmək üçün Lənkərana getmişdim. Bir gün əvvəl anamın xalası oğlu həssas qəlbli, mərhəmətli, cismən və mənən gözəl insan ixtisasca həm tibb işçisi, həm də ali təhsilli riyaziyyat müəllmi olan Seyyid Kitabullah rəhmətə getmişdi.

Qaynatam, dayılarım və digər doğmalardan ibarət iyirmi nəfərlik heyətlə Mogonojoba kəndinə getdik. Mərasim keçirilən yerə çatdıqda dayım və qaynatamdan xahiş elədim ki, qabağa düşüb, məclisə daxil olsunlar. Hər ikisi Hacısan sən qabağa düş dedilər. Əssalamun Əleykum! - deyərək məclisə daxil oldum. Xeyli adamın yığışdığı magarın yuxarı başında bir neçə nəfərin otura biləcəyi yer vardı. Mollalar kürsü-taxt üstündə əyləşib balışlara söykənmişdilər.

Salamıma yerindən dik qalxan aparıcı mollanın ayağa durmasından digər mollalar və məclis əhli ayağa qalxdı. Hüzn məclisində Şeyx həzrətləri və dövlət rəhbərlərinin gəlişi istisna olmaqla ayağa durmurlar. Məclisdəkilərin ayağa qalxması məni karıxdırmışdı. Verdiyim salamın cavabını alan ortadakı molla: – «*Hacı buraya buyurun!*» — dedikdə lap çaşdım. Təşəkkür edib ağsaqqallarla gəldiyimi və onların yanında oturmaq istədiyimi bildirdikdə molla üzünü hələ də ayaq üstə duran məclis əhlinə tutaraq: – *«hörmətli məclis əhli gəlin Hacıdan bir yerdə xahiş edək ki, buraya buyursun.»* dedikdə, ona tərəf getməli oldum.

Aparıcı molla öz yerini mənə təklif etdi. Etiraz etsəm də razılaşmayıb məni ortada əyləşdirdikdən sonra Fatihə verib, məndən məclii aparmağı — **«Quran»**dan, şəriətdən söhbət etməyi xahiş etdi. Heç belə vəziyyətə düşməmişdim. Bir neçə dəfə ayrı-ayrı evlərdə müəyyən söhbətlər aparmışdım. Moskvada işlədiyim vaxtlarda Vətən-vətənpərvərlik, respublikamızın düşdüyü vəziyyət, Rusiyada, Orta Asiyada olan diasporalarımız haqqında Respublika Müəllimlər İnstitutunda məktəb direktorları, dərs hissə müdirləri-müəllimlər qarşısında iki saat çıxış etmişdim. Bu söhbət fəaliyyətimlə bağlı olduğundan çətin olmamışdı. İndiki vəziyyət isə tamam başqa idi. Məclisdə dini təhsil almış üç molla, kəndin axundu və dini biliklər almış, Şərq ölkələrində diplomatik vəzifədə çalışmış adamlar vardı. Burada söz danışmaq böyük məsuliyyət tələb edirdi. Söhbət etməkdən imtina etmək istədiyimi duyan Seyyid məslisə müraciətlə: «*Hacı qardaşımız ziyarətdən təzəcə qayıtdığından onu dinləsək rəhmətliyin də ruhu şad olar.*» söylədikdə: məclisdə tam sakitlik bərqərar oldu.

Dünyasını dəyişmiş Kitabullah müəllimin özünün və valideynlərinin xeyirxah əməllərindən bir qədər söhbət edib onlara rəhmət dilədikdən sonra Yaradan və yaranışdan – ilk Müəllimdən danışanda məclisdəkilərin diqqət kəsildiklərini duydum. Milçək uçsaydı eşidilərdi. Məclisə yeni gələnlər içəridə yer olmadığından çadırın açıq tərəfində qoyulmuş taxtanın üstündə əyləşirdilər. Adətən yas mərasimində danışan söhbətini mümkün qədər qısa edib bitirməlidir ki, camaat yorulmasın, arada Fatihə verib tələsən, işi olan adamların getməsinə şərait yaratmalıdır. Bu sahədə

təcrübəsiz olduğumdan və məclis əhlinin çox diqqətlə dinləmələrindən söhbət bir qədər uzanmışdı. İslamın yaranma dövrünə çatdıqda günəşin qüruba endiyini və əhli-qubur ziyarətinə gecikdiyimizi hiss edib söhbəti yekunlaşdıraraq Fatihə verdikdən sonra, adını bu gün də bilmədiyim axund Seyyid ayağa qalxaraq barmağındakı qırmızı rəngli əqiq qaşlı üzüyünü çıxarıb sağ əlimin çeçələ barmağıma taxaraq: – «*bu üzük sənə layiqdir*» – söylədi. Məkkədə bağışlanmış üzüyünmün olduğunu desəm də: – «*barmağındakı bu üzükdən deyil bu* ***«qalibiyyət üzüyüdür»*** *qoy ağadan sənə yadigar olsun. Biz bu gün səndən çox şey öyrəndik»* – dedi.

Əslində danışdıqlarımın hamısı yəqin ki ona məlum idi.

Bu mənə bağışlanan **ikinci üzük,** xoşbəxtlik, uğur gətirən, *qalibiyyət rəmzi olan üzük* ***«Qalibiyyət üzüyü»*** *idi...*

# Üçüncü üzük
# Qızıl üzük

Sözardının əvvəlində qeyd etdiyim kimi **üçüncü – üzük – qızıl üzüyü** Kazım müəllim mənə bağışlamaqla xoş arzular, uğurlar diləmişdi.

Xeyirxah bir qələm sahibinin çox keşməkeşli və ibrətamiz taleyindən ümumi yaradıcılıq – həyat yolundan və bu günkü yaşantılardan bəhs etdiyim bu balaca kitabçanın əvvəlində oxuduğunuz kimi, Kazım müəllimin atası Zahirhüseyn demokratik hökümətin dövründə musavatçı olduğundan, ötən əsrin 30-cu illərində repressiya olunaraq Solovki adalarına göndərildiyindən, özü və ailəsi məşəqqətlər görmüşdü. Sürgün olunanın əmlakı da o vaxt müsadirə olunurdu. Belə ki, onların evində qızıl zinət əşyası adında heç bir şey olmayıb, bir üzükdən başqa...

Kazım müəllim anası Məkbir xanımla əlaqədar xatirələrini yada salaraq danışır ki, əmisi Raqibhüseynin almaz qaşlı üzüyü itibmiş. Bir gün təzəgəlin olan Məkbir xanım həyəti süpürərkən bu üzüyü tapıb, qaynanasına göstərdikdə evin ağbirçəyi Məşədi Ənvər xanım: — «*qızım apar ver böyük qaynın Raqibhüseynə, onların qızılı itmişdi*» — deyir. Məkbir xanım üzüyü qaynına verdikdə, rəhmətlik Raqibhüseyn üzüyü gəlindən götürməyib — «*tax barmağına, qoy səndə qalsın*» — deyir. Beləliklə Məkbir xanımda qalan təxminən bir karatlıq almaz qaşlı üzük onların evində yeganə qiymətli zinət əşyası kimi qalır. Kazım müəllim Asya xanımla nişanlananda təzəsini ala

bilmədiklərindən bu üzüyü nişan kimi ona aparırlar və bu gün artıq 60-cı ildir ki, Asya xanım bu üzüyü barmağında gəzdirir.

Evləndikdən bir qədər sonra 1954-cü ildə bir gün yaxşı qonorar alan Kazım müəllim işi uğurlu olsun deyə və zinət əşyası kimi bu gün mənə bağışladığı qızıl üzüyü almış və 50 ildən artıq onu barmağında gəzdirmişdir. Bu qızıl üzüyü alıb barmağına taxdıqdan sonra doğrudan da Kazım müəllimin işləri yağ kimi getmiş, böyük uğurlar qazanmışdır.

Deyirlər qızıl insanda yüksək əhval-ruhiyyə və özünə inam yaradır. Bəlkə bu səbəbdən işləri uğurlu olub, ya da İlahidən verilib. Mən bu üzüyün düşərli olmasına şübhə eləmirəm. Həmişə xeyirxahlıq etmək haqqında düşünən Kazım müəllimin barmağında onun müsbət enerjisi ilə yüklənən və bu yükü özündə uzun illər daşıyan üzük başqa cür ola bilməz.

**Qoy Kazım müəllimin arzusu çin olsun! Amin!** Kazım müəllim üzüyü mənim sol əlimin çeçələ barmağına taxmışdı. İki gün sonra telefonla danışanda dedi ki, sol əldə olsa adamlarla görüşəndə səni incitməz. Mənim bildiyimə görə kişilər üzüyü sağ əldə gəzdirirlər. Barmaqlarım da uşaqlıqdan zəhmətlə bərkidiyindən görüşdüyüm min adamdan birinin əli barmaqlarımı incidəbiləcək tərzdə sıxa bilər. İmkan olduqca sağ əlimin barmağında daşıyacağam müəllimin talismanını.

Kazım müəllim çox sadə qəlbli saf adamdır. Aramızda 24 il yaş fərqi olduğundan və adi insan məntiqinə görə mənim ondan çox yaşayacağımı ehtimal

edərək, bir dost bir dindar adam, Hacı kimi onun dünyasını dəyişəndə dəfn və ehsan mərasiminin təşkilində oğlu Azərə yardımçı olmağı məndən xahiş edib. Kimin daha tez dünyasını dəyişəcəyini ancaq Uca Xaliq bilir. Bəlkə mən ondan daha tez haqqa qovuşdum. Bu Allahın əlindədir. Ölən üçün vacib olan əsas məsələ, islami qayda ilə yuyulub paklanaraq kəfənlənməsi, namazının qılınıb torpağa tapşırılmasıdır. Sonrakı məsələlər və ehsan süfrəsi elə bir əhəmiyyət kəsb etmir.

Yeri gəlmişkən, Rəsuli Əkrəmdən ehsanla bağlı bir hədisi burada qeyd etmək istərdim. Rəhmətullilaləmin Mədinədə yaşadığı ilk illərdə orta səviyyədə imkanları olan bir müsəlman vəfat edərkən vəsiyyət edir ki, ondan miras qalmış bir anbar xurmanı Rəsulullah öz əlləriylə ehsan olaraq paylasın. Muhəmməd Salavatullah bu xurmaları paylayıb qurtardıqdan sonra anbarın küncündə qalmış bir yarımçıq xurmanı qaldırarkən, qulağına bir səs gəlir:— «*xoş halına bu adamın onun malını Peyğəmbər öz əliylə payladı, yəqin ki, dərəcəyə yetər və o adam artıq Cənnətlikdir.*» Peyğəmbər üzünü müsəlmanlara tutub — «***ey iman gətirənlər, bu heç də belə deyil, rəhmətlik əlimdəki yarımçıq xurmanı öz əliylə ehsan etsəydi, savabı mənim onun adından öz əlimlə payladığım bir anbar xurmanın savabından daha çox olardı!***»

Bu yerdə bir olayı qeyd etməyə bilmirəm. Allah Kazım müəllimin və bu sətirləri oxuyan və dinləyənlərin cəmi dünyadan köçənlərinin ruhunu şad, övladlarını xoşbəxt eləsin!

Anam rəhmətə getmişdi. Kazım müəllimlə sonuncu görüşümüz anam dünyasını dəyişməzdən iki həftə əvvəl olmuşdu. Ancaq Bakıda olduğum dövrdə demək olar ki, hər gün zəngləşirdik. Anamın yeddisindən sonra şəhərə qayıtsam da onunla görüşməyə imkan olmamışdı. Demək olar ki, hər gün kimsə başsağlığına gəlirdi. Kazım müəllimlə telefonla danışarkən hər dəfə mənə xeyli təsəlli verib anama rəhmət diləyib, darıxma desə də sonda hiss edərdim ki, mənimlə görüşmək istəyir. Ancaq nədənsə mən evdən çıxmaq istəmirdim. Sonuncu cüməaxşamından sonrakı telefon danışığında xahiş etdi ki, arada vaxt tapıb onlara gedim. Gəlişimdən çox sevinmişdi. Elə hey danışır mənə təsəlli verir, heç kəsin valideyninin qalmadığını deyirdi. Mən onlara gedərkən rahat söhbət edək deyə, adətən yanında olan ev adamları, qızı Sevinc, ya nəvəsi Erkin, yaxud digəri başqa otağa keçir, Asya xanım da tez mətbəxə keçib onsuz da həmişə dolu olan süfrəyə nəsə əlavə etmək və ya çay gətirməyə gedir.

Söhbət əsnasında soruşdu ki, otaqda kim var? İkimizik Kazım müəllim dedim: - nəsə lazımdır?

Xeyr dedi, elə belə soruşuram. Sonra döş cibindən dörd qatlanmış və görünür çoxdan büküldüyündən, qat bağlamış kağızı mənə tərəf uzadıb qoy cibinə dedi. İçində nə olduğu və nə yazıldığını bilmədiyim kağızı onun buyurduğu kimi cibimə qoyduqdan sonra, nədir ki? – deyə soruşdum. Heç elə bir şey deyil.

Çoxdan ürəyimdən keçirdi, ancaq nədənsə fürsət olmamışdı. Ay Hacı, ölüm-itim dünyasıdır. Sənin bircə oğlun var, Allah xoşbəxt eləsin! Mən özüm indi də onun toyunu eləsən bilirsən ki, vəziyyətimə görə gələ

bilmərəm, evdən çıxa bilmirəm. Ona görə dedim, imkan var ikən bu başdan övladının toyuna bir bərəkət və xeyir-dua kimi nəsə verim ki, həm ürəyim sakit olsun, həm də sənin qəlbin sevinsin. Araya sükut çökdü. Bir anlıq qeyri-ixtiyari doluxsundum və heç nə deyə bilmədim. Səsimi çıxarsaydım kövrəldiyimi duyacaqdı. Deyəsən özü də hiss etmişdi. Asya xanım əlində çay dolu stəkan içəri daxil oldu. – Ay Hacı sən bizə gələndə heç nə yemirsən, heç olmasa məxsusi sizin üçün dəmlədiyim çayı için. Əslində mən onlara gedəndə süfrədə olan meyvələrin hərəsindən birini, bəzən ikisini yeyirəm. Ancaq nədənsə bunlar Asya xanımı razı salmır. Doyunca yeməyimi istəyir.

O gün mən heç nə danışa bilmədim və Kazım müəllimə aldığı pensiyasından oğlumun toyu üçün verdiyi üç yüz manata görə sağ ol! – belə deyə bilmədim və bu gün də deyə bilməmişəm. Sanki bu elə belə də olmalı idi. Əslində belə deyil Rəsuliəkrəmin dediyi kimi, əgər kimsə sənə öz əliylə yarımçıq bir xurma versə belə Allahın yanında dəyəri çox böyükdür. Kazım müəllimsə mənə oğlumun toyu üçün nə az, nə çox, sonuncu aylıq əmək haqqımdan da xeyli artıq pul bağışlamışdı. Belə işləri çox böyük qəlbə malik, özümə həyat müəllimləri hesab etdiyim Rəşid Mahmudov, Kazım Ələkbərov edir. Sadıq Murtuzayevin bağında olarkən hər dəfə burada olan meyvələrdən uşaqlara aparmağımı təkidlə xahiş edir. Rəhmətlik babalarım Ayaz və Məhəmmədəli meyvə yetişən vaxt bütün qohumlara və qonşulara pay göndərərdilər. Atam Eynulla qapımıza gələn dilənçiyə pul və pay verməklə onları həm də yedirdər, bir sıra hallarda özünün bir

qədər geydiyi köhnəlməyən paltarlarından onlara geyindirərdi.

Uca Allah dünyasını dəyişmiş belə kişilərə rəhmət, sağ olanlara sağlam ömür verib axırlarını xeyir eləsin, inşallah! Amin!

Əziz Kazım müəllim Allah qismət eləsə yazdıqlarımı oxuyarlar siz də dinləyərsiniz. Bu sətirləri qələmə almazdan əvvəl dünyasını dəyişmiş bir dostunuzun hüzn məclisinə getmişdim. Allah rəhmət eləsin, qəbri nurla dolsun!

Müqəddəs Ramazan ayı olmasına baxmayaraq iki gün onun üçün günün günorta çağı ehsan verildi. Bunu ehsan adlandırmağa çətinlik çəkirəm. Qəbulu Allahın əlindədir. Övladları iftar süfrəsi açsaydılar, bəlkə də bir ağzı oruclunun duası yerinə yetər, atalarının ruhu şad olardı. Rəhmətliyin öz əliylə sağlığında verdiyi və əməlləri dadına yetə biləcək. Deyirlər ki, yaxşı adam olub bunu siz də təsdiqləyirsiniz. Mən ancaq onun üçün dua edə bilərəm: **Allah bu müqəddəs Ramazan xatirinə günahlarını bağışlasın!**

Ərazilərimiz Rus imperiyası tərəfindən işğal edildikdən və Sovetlər dönəmində ateizim təbliğatı aparılmıqla dövlət səviyyəsində müsəlman xalqlarının dini və milli adət-ənənələrinin – tarixi köklərinin unudulmasına, bu millətləri imperiya daxilində əritməklə yox etməyə səy göstərilmişdi.

Şükürlər olsun ki, müstəqilliyə qovuşduq. Bu gün dinimizə, milli adət-ənənələrimizə qayıtmağa heç bir maneə yoxdur. Bəs nə üçün haqqa doğru yönəlmirik? **Allah Özü bizi hidayət etsin və dadımıza yetsin!**

Sizin məsələyə gəldikdə, deyim ki, günahsız insan yoxdur, mən də siz də onların içində. Allah dadımıza yetsin. Ehsan məsələnizi isə – çox çətin bir dövrdə ehtiyac içində boğulduğunuz, ananızın xəstə olduğu vaxtda Talıb kişiyə verdiyiniz iki kilo qənd, 147 manat pulla, Sumqayıtlı, Tovuzlu qızların haqqının bərpasıyla, müəllimlərinizə göstərdiyiniz hörmətlə, ən önəmlisi valideynlərinizə xüsusiylə ananıza olan qayğı və məhəbbətinizə görə, təqaüdünüz hesabına çəkdirdiyiniz dostunuzun hüzn çadırındakı və daha neçə-neçə evlərdə olan portretlərlə, bu gün evinizə gələn əzizləriniz doğmalarınıza göstərdiyiniz qayğı, sizi istəyənlərə, yemək, çay, meyvə, hədiyyə etdiyiniz kitablar, sevdiyiniz insanlara məhəbbətinizi görüşlərinizdə və telefonda izharla, nəhayət, son dərəcə əziz və qiymətli bildiyiniz, əlli ildən artıq barmağınızda gəzdirdiyiniz qızıl üzüyü sizə heç bir qohumluğu çatmayan kənar bir şəxsi özünüzə doğma bilib ona hədiyyə etmək, oğlumun toyu üçün pensiiyanızdan ayırıb irəlicədən hamıdan əvvəl verdiyiniz üç yüz manat pulla və digər xeyirxahlıqlarınızla həll etmisiniz. **Allah qəbul eləsin!** Və edəcək inşallah.

Mənim sizin üçün ən böyük arzum sizi bir daha Allaha doğru – imana doğru səsləməyimdir. Sizi tanıdığım gündən Allahı, onun Peyğəmbərini, Rəsulullahın vəsisi Əlini sevdiyinizi yazılrınızdan oxumuş dilinizdən eşitmişəm. Əməlləriniz də bunu təsdiqləyir. Buna baxmayaraq sizdən aslı olan və olmayan səbəblərdən ibadətiniz olmamışdır. Bu məni çox narahat edir. Allahın mərhəməti çox böyükdür. Ona görə də deyirəm nə qədər ki, gec deyil Onun mərhəmətinə sığınaraq, can

körpücük sümüyünə çatmamış əstəğfir deyib – ibadətə, Allaha doğru gəlin! Allah qəlbinizdə iman işığı yandırıb axırınızı və axirətinizi xeyir eyləsin inşallah!

Əziz oxucum! Mən Kazım müəllimi təvazökar bir insan kimi tanımış və bilirəm ki, etdiyi yaxşılıqlardan danışmağı sevən deyil. Onun xeyirxah əməllərini sadalamaqda məqsədim heç də Kazım müəllimi təbliğ etmək deyil. Xeyriyyəçiliklə məşqul olanlarımız az olmamışdır. Zeynalabdin Tağıyev, Ağamusa Nağıyev, Murtuza Muxtarov nə qədər xeyirxah işlər görmüşlər. Neçə-neçə din xadimlərimiz onlara gətirilən ianə və pvylara əllərini belə vurmadan, göndərənin kim olduğunu hiss etdirmədən ehtiyacı olanlara yollamışlar. Tanıdığım rəhmətlik Mirzəməhəmmədhüseyn axundun yanına gələn müxtəlif səviyyəli insanlar, dövlət adamları ona böyük məbləğdə ianələr versələr də evlərində heç vaxt üç nəfərin yeyə biləcəyindən artıq ərzaq habelə pul olmamışdır. Səməd Vurğun, Qılman İlkin və digərləri neçə-neçə tələbəyə təqaüd vermişlər. Yaxşı tanıdığım professor Əbülfəz Rəcəbov eyni vaxtda iki ali məktəbdə oxuduğu dövürdə aldığı əlaçılıq təqaüdünün birini özünün çox ciddi ehtiyacı olduğuna baxmayaraq göndərənin kim olduğunu gizli saxlamaq şərti ilə kasıb bir tələbəyə ünvanlamışdır. Həkim dostum Xaqani Hüseynov neçə-neçə imkansız xəstənin ala bilmədiyi dərman pereparatlarının pulunu ödəmiş və onların müalicəsinə kömək etmişdir.

Tarix boyu xeyriyyəçilər olmuş və olacaqdır. İslam aləmində deyirlər ki, kömək Əlidən qalıb. Rəvayətə görə Həzrət Əli məsciddə namaz qılarkən, qeyri millətdən və dindən olan, ona əl açan dilənçiyə

ibadətini kəsmədən barmağındakı üzüyü göstərmiş, dilənçi də üzüyü onun barmağından çıxararaq razılıqla məsciddən çıxmışdır. Bununla əlaqədar Quranın 5-ci «Maidə» surəsinin 55-ci ayəsi nazil olmuşdur: «**Sizin haminiz ancaq Allah, Onun peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükudə olduqları halda zəkat verərlər**»…

Müqəddəs kitabımızdakı üç beş rəqəminin ardıcıllığı bu əməli edənin uca Allah tərəfindən **"üç əla"** ilə mükafatlandırılmasına işarədir. Xaliqin bizə göndərdiyi kəlamının hər bir hərfi, hər sözü hesaba alınmış və böyük dəyər daşıyıcısıdır.

Bütün bunları və Kazım müəllimin etdiyi xeyirxah əməlləri sadalamaqda əsas məqsədim bu gün və gələcəkdə bu sətrləri oxuyan imkan sahiblərini vaxt varkən, əcəl qapını kəsməmiş, yaxşılıq etmək, imkansızlara kömək, arxasızlara dayaq olmağa sövq etməkdir.

Hər kəs xeyirxah bir əməl edərək könül xoşluğu ilə Allah yolunda nə verərsə – bu elm də ola bilər. – Allah onun əvəzini Quranın «Bəqərə» surəsinin 261-ci ayəsində buyurduğu kimi yeddi yüz dəfə, axirətdə isə daha artıq ödəyər: «**Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırar. Allah** *lütfü ilə* **genişdir**».

**Allah yaxşı əməl sahibi olan bütün insanlara yar olsun! Amin!**

Sonda bu sətirlərin müəllifi olaraq, sizin şəxsən mənə və istədiyiniz-sevdiyiniz insanlara dilədiyiniz arzulara qoşularaq çox da bitkin və qüsurlardan xali olmayan yazımı oxuyanlara və dinləyənlərə ən xoş arzularımı bildirməklə, uca Allah xatirinə mətndəki xətalara görə günahlarımı bağışlamalarını diləyirəm...

Müəllif müqəddəs Ramazan ayında
kitabın işıq üzü görməsinə yardım
göstərdiklərinə görə
Cəsarət və Siyasət Qasımovlara
minnətdarlığını bildirir.

Rəssam: ***Jalə Mehmanqızı***
Korrektor: ***Bahar Fərzullayeva***
Mətni yığdı və səhifələdi: ***Çiçək Hümmətzadə***
Operator: ***Hicrət Məmmədov***

Çapa imzalanmış 07.05.2010; ofset kağızı; formatı 60x84
16/1; 4 çap vərəqi; tirajı 100.